Bizim Xəzər Dəniz Gəmiçiliyinin donanması Azərbaycanın çox böyük sərvətidir. O, böyük işlər görür və gələcəkdə də görəcəkdir.

Heydər ƏLİYEV

DƏNİZ

"AZƏRBAYCAN XƏZƏR DƏNİZ GƏMİÇİLİYİ" QSC-nin qəzeti

15 avqust 2019-cu il № 57-60 (9339) | Qəzet 1931-ci ildən nəşr olunur | www.seanews.az | Qiyməti 50 qəpik

BU SAYIMIZDA

"Mərdəkan" təchizat-yedək gəmisi əsaslı təmir olunub

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin (ASCO) Xəzər Dəniz Neft Donanmasına məxsus "Mərdəkan" təchizat-yedək gəmisi əsaslı təmir olunub. Səh. 2

Xəzərin Rusiya sektorunda yerləşən süni obyektlərin qeydiyyata alınması barədə Qanun imzalanıb

Prezident Vladimir Putin Xəzərin Rusiya sektorunda yerləşən süni obyektlərin qeydiyyata alınması barədə Qanun imzalayıb.

Sənəd Xəzərin Rusiya sektorunda süni adaların, qurğuların, tikililərin inşası, istismarı və istifadəsi, eləcə də onlara mülkiyyət hüququ, qazma işlərinin aparılması, sualtı kabel və boruların çəkilməsi qaydalarını tənzimləyir. Səh. 3

ASCO-da "Təhlükəsizlik Günü" keçirilib

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-də (ASCO) "Təhlükəsizlik Günü" keçirilib.

Tədbirdə 2019-cu ilin ikinci rübü ərzində ASCO-da qeydə alınmış hadisələr, daxili audit və monitorinqlər barədə danışılıb. Səh. 4

"CMS" gəmilərin idarə edilməsi sahəsində peşəkar xidmət təqdim edir

Müsahibimiz Vüqar Novruzov 2015-ci ildən "Caspian Marine Services" şirkətində Daxili auditor və Compliance Officer vəzifəsində çalışır. Səh. 5

ASCO-nun yaratdığı imkandan istifadə edən tələbələrin sayı ildən-ilə artır

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin (ASCO) Azərbaycan Dövlət Dəniz Akademiyasında (ADDA) tələbələrin savadlı mütəxəssis kimi yetişməsi gəmiçiliyin perspektivli, bilikli kadrlarla təminatında əhəmiyyətli rol oynayır. Səh. 6

27-ci ölkə çempionatının ilk oyununda "Səbail" "Zirə" ilə qarşılaşacaq

Avqustun 5-də AFFA-nın inzibati binasında futbol üzrə Azərbaycan Premyer Liqasının 2019-2020-ci il mövsümünün püşkü atılıb. Səh. 8

Prezident İlham Əliyev Pirallahı rayonunda yaradılmış "NərəMİZ" balıqyetişdirmə zavodunun istehsalat prosesi ilə tanış olub

Ümumi sahəsi altı hektar olan bu müəssisənin ilkin mərhələsində illik istehsal gücü 100 ton nərə, 25 ton çökə əti və 4 ton qara kürüdən ibarət olacaq

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva avqustun 7-də Pirallahı rayonunda "Nərəkənd" balıqyetişdirmə kompleksi layihəsi çərçivəsində yaradılan "NərəMİZ" balıqyetişdirmə zavodunun istehsalat prosesi ilə tanış olublar.

"CMS Properties" şirkətinin rəhbəri Eyvaz Eyvazov dövlətimizin başçısına və birinci xanıma müəssisə haqqında məlumat verdi. Pirallahı adasının girişində təməli Prezident İlham Əliyev tərəfindən 2017-ci ildə qoyulan kompleksin qapalı tipli istehsal sexləri inşa olunub. Ümumi sahəsi altı hektar olan bu müəssisənin ilkin mərhələsində illik istehsal gücü 100 ton nərə, 25 ton çökə əti və 4 ton qara kürüdən ibarət olacaq. Burada 30 iş yerinin açılması nəzərdə tutulur və perspektivdə onların sayı 70-ə çatdırılacaq. Kompleks çərçivəsində açıq tipli ferma, mehmanxana, yaxt-klub və koteclər də layihələndirilib.

"NərəMİZ" balıqyetişdirmə zavodunda müasir texnologiyalarla suyun təkrar dövriyyəsini təmin edən qapalı tipli fermanın inşası tamamlanıb. Qapalı sistemdə suyun təkrar dövriyyəsini təmin edən texnoloji proses nərə balığı istehsalının təbii faktorların təsirindən qorunmasına və yetişdirmə templərinin artmasına imkan yaradır. Burada yetişdirilən nərə balığı inkubasiya olunmuş yumurta mərhələsindən etibarən təxminən 2 il müddətinə 5 kiloqram əmtəə çəkisinə çatdırılır. Layihənin növbəti mərhələsində dənizdə qəfəs təsərrüfatının qurulması nəzərdə tutulur. Hazırda münasib yerin seçilməsi üçün ölçmə-axtarış işləri aparılır. Nəticədə ümumi illik istehsalat həcminin 200 ton balığa və 20 ton kürüyə çatdırılması planlaşdırılır. Kompleksin fermalarında yetişdirilmiş, habelə balıqçıların dənizdə tutduğu balığın mərkəzləşdirilmiş qaydada və zəruri normativlərə uyğun satışının təşkili məqsədilə zəruri şərait yaradılıb, balıq bazarı inşa olunub.

Layihə çərçivəsində ərazinin yaşıllaşdırılması və əhalinin istirahəti üçün şəraitin yaradılması məqsədilə kompleksin ətrafındakı sahil zonası abadlaşdırılıb və ərazidə müasir park salınıb.

Bu layihənin icrası ölkə iqtisadiyyatının qeyri-neft sektorunun inkişafı, o cümlədən idxalı əvəzləyəcək məhsulların istehsalı baxımından mühüm əhəmiyyətə malikdir. Son illərdə aparılan iqtisadi islahatlar nəticəsində qeyri-neft sahəsində mühüm nailiyyətlər əldə olunub, bu sektorun ümumi daxili məhsulda xüsusi çəkisi artıb, rəqabətqabiliyyətli malların istehsalı genişlənib.

İnsanların qəlbində şəfqət və mərhəmət duyğularını gücləndirən Qurban bayramını hər il xoş ovqat və böyük sevinclə qeyd edirik

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin sədri Rauf Vəliyev avqustun 9-da Gəmiçiliyin işçilərini Qurban bayramı münasibəti ilə təbrik edib. Təbrikdə deyilir:

Hörmətli həmkarlar!

Sizi dünya müsəlmanlarının mənəvi birlik, bərabərlik və həmrəylik rəmzi olan müqəddəs Qurban bayramı münasibətilə səmimi-qəlbdən təbrik edir, sizə uzun ömür, möhkəm cansağlığı, ailələrinizə xoşbəxtlik, süfrələrinizə bol ruzi-bərəkət, doğma Azərbaycanımızın tərəqqisi, dəniz nəqliyyatının inkişafı naminə çətin və şərəfli işinizdə uğurlar arzulayıram.

Xalqımızın dünyagörüşünün formalaşmasında və milli-mədəni inkişafında müstəsna rol oynamış mütərəqqi islami dəyərlər ölkəmizdə həmişə uca tutulmuşdur.

Demokratik prinsiplərin, dini etiqad və vicdan azadlıqlarının bərqərar edildiyi müstəqil Azərbaycan Respublikasında Qurban bayramı hər il dövlət səviyyəsində böyük təntənə ilə qeyd olunur.

Fərəhli haldır ki, etiqad azadlığımızın qarantı, tarixi dəyərlərimizin qoruyucusu olan möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi altında sürətlə inkişaf edən respublikamızda bu əziz bayramı da əmin-amanlıq şəraitində, xoş ovqat və böyük sevinclə keçirə bilirik. İnsanların qəlbində şəfqət və mərhəmət duyğularını gücləndirən Qurban bayramında Uca Yaradana yaxınlığın, mənəvi-əxlaqi dəyərlərə bağlılığın sevincini yaşayanlar xeyirxah amallar uğrunda hər cür fədakarlığa hazır olduqlarını bir daha nümayiş etdirirlər.

Bu gün ölkəmizin hər yerində Allahın adına qurbanlar kəsilir, Odlar Yurdunun tərəqqisi, torpaqlarımızın işğaldan azad olunması, xalqımızın rifahı və əmin-amanlığı üçün dualar edilir.

Əziz həmkarlar!

Qoy bu mübarək bayram günlərində xalqımızın əmin-amanlığı, gənc dövlətimizin daha da qüdrətlənməsi naminə etdiyiniz dualar, kəsdiyiniz qurbanlar Uca Tanrı dərgahında qəbul olunsun və Yaradan mərhəmətini heç zaman xalqımızın və müstəqil Azərbaycanımızın üstündən əskik etməsin.

Qurban bayramınız mübarək olsun!

Rauf VƏLİYEV,
"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin sədri

Baş Nazir Novruz Məmmədov Birinci Xəzər İqtisadi Forumunda iştirak edib

Avqustun 12-də Türkmənistanın Türkmənbaşı şəhərində Birinci Xəzər İqtisadi Forumu keçirilib.

AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, foruma Xəzəryanı ölkələrin - Rusiyanın Baş Naziri Dmitri Medvedev, İran İslam Respublikasının Birinci vitse-prezidenti Eshaq Cahangiri, Qazaxıstanın Baş Naziri Askar Mamin, qonaq qismində isə Bolqarıstanın Baş Naziri Boyko Borisov və Özbəkistanın Baş Naziri Abdulla Aripovun başçılıq etdikləri nümayəndə heyətləri, o cümlədən Xəzər regionunun bank və biznes sektorunun nümayəndələri, tədqiqatçılar və iqtisadiyyatın inkişafı ilə məşğul olan şirkətlərin rəhbərləri qatılıblar. Forumda Azərbaycan Respublikasını Baş Nazir Novruz Məmmədovun başçılıq etdiyi nümayəndə heyəti təmsil edib.

Forumu açıq elan edən Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov çıxışında bildirib ki, Xəzər dənizinin karbohidrogen ehtiyatlarından səmərəli istifadə regionun iqtisadiyyatının böyüməsi üçün güclü impuls ola bilər. O qeyd edib ki, region ölkələri Xəzərin inkişafı üçün aktual praktik məsələlərin həllinə yönəlməlidirlər və "Xəzər enerjisi" regionun iqtisadiyyatının dinamik inkişafı üçün əsas olmalıdır: "Xəzərdə karbohidrogen hasilatının artması regionda bütün iqtisadi mənzərəni əsaslı şəkildə dəyişdirməyə, onu bərabərhüquqlu və effektiv tərəfdaş kimi qlobal iqtisadi məkana inteqrasiya etməyə qadirdir".

Forumda çıxış edən Baş Nazir Novruz Məmmədov qeyd edib ki, Azərbaycan Birinci Xəzər İqtisadi Forumunun keçirilməsi təşəbbüsünü alqışlayır. Tədbirin yüksək səviyyədə təşkilinə görə Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədova təşəkkürünü bildirən Baş Nazir deyib ki, bu forum Xəzəryanı ölkələr arasında əməkdaşlığın fəallaşdırılmasının yeni formatı olacaq. Novruz Məmmədov forum iştirakçılarının diqqətinə çatdırıb ki, 2018-ci ildə Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiya imzalanandan sonra Xəzər regionunun iqtisadi inkişafı məsələsi xüsusilə aktuallaşıb. Azərbaycan tərəfi güman edir ki, Xəzər İqtisadi Forumu ticarət, nəqliyyat, investisiya və turizm sahələrində əməkdaşlığımıza əlavə təkan verəcək.

(Davamı 4-cü səhifədə)

"Mərdəkan" təchizat-yedək gəmisi əsaslı təmir olunub

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin (ASCO) Xəzər Dəniz Neft Donanmasına məxsus "Mərdəkan" təchizat-yedək gəmisi əsaslı təmir olunub.

"Bibiheybət" Gəmi Təmiri Zavodunda aparılan işlər vaxtında və yüksək keyfiyyətlə başa çatdırılıb.

Proses zamanı braşpil qurğusu, suyağ soyuducuları, on ədəd nasos, hava balonları, boru sistemləri (armaturları ilə birlikdə), su keçirməyən qapıların, illüminatorların, dayanacaq mühərriklərinin generatorlarının və mexanizmlərin elektrik idarəetmə və qorunma sistemləri təmir edilib. Bundan başqa, bioloji qurğu tamamilə demontaj olunub, əvəzində yeni 87,79 kubmetr həcmində ballast çəninin fekal-çirkab su çəni kimi istifadəsi təmin olunub.

Həmçinin, işçi heyətin yaşayış şəraitini yaxşılaşdırmaq üçün yeməkxana, sanitar qovşaqlar, istirahət otağı və kayutlarda lazımi təmir işləri aparılıb.

Tərsanə təmiri zamanı isə gəminin hərəkət-sükan kompleksi, dib-yan armaturları, protektor qurğuları cari təmir edilib. Gövdənin sualtı və suüstü hissəsində zədələnmiş sahələr dəyişdirilib. Bundan əlavə, gövdənin qorunması üçün cizgi əsasında yeni metal qoruyucu tirlər quraşdırılıb, baş göyərtədə lövbərlərin qoyulması üçün taxta döşəmə metal lövhə ilə əvəz olunub. Gövdə təmir işləri başa çatdırıldıqdan sonra gəmi üzrə rəngləmə işləri yerinə yetirilib.

Təmirdən sonra gəmi dəniz sınağına çıxarılıb və sınaq işləri uğurla başa çatdırılıb.

Məlumat üçün bildirək ki, gəminin uzunluğu 60, eni 16 metr, sürəti 13 uzeldir. "Mərdəkan" gəmisinin dedveyti 1810, dartma qüvvəsi 75 tondur. Gəminin texniki xüsusiyyətləri sərt hava şəraitində dənizdəki platformalara yan almadan yükləmə-boşaltma əməliyyatlarını təhlükəsiz şəraitdə yerinə yetirməyə imkan verir.

Təchizat-yedək gəmiləri yanacaq, içməli su, qazma məhlulları, quru yük, konteyner, borular və bu kimi digər müxtəlif yükləri qəbul etmək üçün geniş göyərtəyə və böyük həcmli yük tanklarına malikdir.

Xəzər Dənizi İnstitutu yaradılır

Türkmənistanda Xəzər Dənizi İnstitutu yaradılır.

"Türkmenistan seqodnya" rəsmi informasiya agentliyi xəbər verir ki, Türkmənistanın dövlət başçısı Qurbanqulu Berdiməhəmmədov Türkmənistan Prezidenti yanında Xəzər dənizi məsələləri üzrə Dövlət müəssisəsinin ləğv edilməsi və onun bazasında Xəzər Dənizi İnstitutunun yaradılması haqqında Fərman imzalayıb.

Yeni yaradılan institutun fəaliyyətinə nəzarətin həyata keçirilməsi Türkmənistan Nazirlər Kabineti Sədrinin müavini, xarici işlər naziri Rəşid Meredova həvalə olunub.

Fərmanın mətnində qeyd olunub ki, institut Xəzər dənizi regionunda əməkdaşlığın inkişafı, müxtəlif istiqamətlərdə aparılan işlərin təhlili, dənizdə elmi-tədqiqat işlərinin həyata keçirilməsi, Xəzər dənizi ilə bağlı beynəlxalq-hüquq və milli sənədlərin işlənib hazırlanması, həmçinin Xəzər üzrə beynəlxalq sazişlərin Türkmənistanda yerinə yetirilməsinin icmalının və profil-metodik informasiyaların təqdim edilməsidir.

Hind okeanında birgə təlimlərin keçirilməsi nəzərdə tutulur

İranın və Rusiyanın Hərbi Dəniz Qüvvələri Hind okeanında birgə təlim keçirəcəklər.

Bunu İranın Hərbi Dəniz Qüvvələrinin komandanı, admiral Hüseyn Hanzadə deyib.

O bildirib ki, tərəflər artıq razılıq əldə ediblər və cari ilin sonuna kimi Rusiyanın hərbi gəmiləri Hind okeanında neytral sulara daxil olduqdan sonra təlimlər başlayacaq.

Rusiya ilə İranın hərbi sahədə yüksək əməkdaşlıq əlaqələrinin olduğunu bildirən admiral hərbi təlimlərin Hind okeanının hansı hissəsində keçiriləcəyini dəqiq deməyib.

İran mətbuatı vurğulayır ki, təlimlər Hörmüz boğazı və Fars körfəzində keçiriləcək. Hər iki məntəqə İranın nəzarətindədir. Təlimlərin keçirilməsinin məqsədi ABŞ-a qarşı yönəlməyib və onun təhlükəsizliyinə təhdid yaratmır. Çünki ABŞ coğrafi baxımdan bu regiondan çox uzaqda yerləşir. Buna baxmayaraq, təlimlər ABŞ-ın Fars körfəzində müttəfiqləri ilə birlikdə İrana qarşı koalisiya yaratmaq istəyinin qarşısını almaq üçündür.

Rabil Kətanov

Dənizçilər məcburi köçkün ailələrinə bayram sovqatı aparıblar

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin (ASCO) nümayəndələri Qurban bayramı ərəfəsində şirkətin himayəsində olan qaçqın və məcburi köçkün ailələrinin məskunlaşdığı qəsəbələrə baş çəkiblər.

Dənizçilər həmişə olduğu kimi, bu dəfə də əslən Xocalı, Kəlbəcər, Laçın, Ağdam, Şuşadan olan və Goranboy rayonunda müvəqqəti məskunlaşan 779 qaçqın və məcburi köçkün ailəsinə, ümumilikdə 3 min 350 nəfərə zəruri ərzaq məhsullarından ibarət bayram sovqatı paylayıblar. Bayram sovqatı ünvanlara ASCO-nun Sosial inkişaf və nəqliyyat şöbəsinin əməkdaşları tərəfindən çatdırılıb.

Qaçqın və məcburi köçkünlər onlara göstərilən daimi diqqət və qayğıya görə minnətdarlıqlarını bildirib, bayram arzularını dilə gətiriblər.

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC yaradıldığı dövrdən şəhid ailələrinə, ölkənin ərazi bütövlüyü və müstəqilliyi uğrunda döyüşlərdə sağlamlığını itirənlərə, eləcə də ailəsində şəhid olan işçilərə maddi yardım göstərilməsini, onların sosial təminatının yaxşılaşdırılmasını daim diqqətdə saxlayır.

Girov götürülən 10 türk dənizçi sərbəst buraxılıb

Türkiyə bayrağı altında üzən "Paksoy-I" karqo gəmisinə edilən silahlı hücum zamanı girov götürülən 10 türk dənizçi sərbəst buraxılıb.

Onların vəziyyətinin qənaətbəxş olduğu bildirilir.

Xatırladaq ki, iyulun 13-də Nigeriya sahillərinə yaxın sularda Türkiyə bayrağı altında üzən "Paksoy-I" karqo gəmisinə silahlı hücum nəticəsində 18 nəfərlik heyət üzvündən 10-u girov götürülmüşdü.

Günel Məlikova

Riçard Gir içərisində miqrantlar olan gəmiyə ərzaq gətirib

Riçard Gir son bir həftə ərzində Mərkəzi Aralıq dənizində dreyf edən İspaniyaya məxsus "Open Arms" xilasetmə gəmisinə ərzaq məhsulları gətirib.

"Eldiario" nəşrinin yazdığına görə, hazırda gəminin içərisində 121 miqrant var. Gəmi sahilə yan ala bilmir, çünki heç bir ölkə onun qəbul etməyə hazır deyil.

Hazırda İspaniyada istirahət edən Riçard Gir miqrantlara şəxsən kömək etmək istəyib. Onu gəmiyə çatdıran yaxtada bu sözləri görmək olardı: "Siz tək deyilsiniz".

"Dəniz kuboku-2019" beynəlxalq yarışları bu dəfə də dostluğumuzun, qardaşlığımızın, həmrəyliyimizin qələbəsi ilə başa çatacaq

"Beynəlxalq Ordu Oyunları–2019" çərçivəsində Bakıda "Dəniz kuboku-2019" beynəlxalq yarışları keçirilir.

Avqustun 5-də Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində "Dəniz kuboku-2019" beynəlxalq yarışlarının təntənəli açılış mərasimində Müdafiə Nazirliyinin rəhbərliyi, veteranlar, hərbçilər, iştirakçı dövlətlərdən başqa, müşahidəçi qismində Türkiyə, Pakistan, Səudiyyə Ərəbistanı, Bəhreyn və Birləşmiş Ərəb Əmirliklərinin Silahlı qüvvələrinin nümayəndələri, xarici ölkələrin Azərbaycanda akkreditə olunmuş hərbi attaşeləri və digər qonaqlar iştirak ediblər.



Mərasimin aparıcıları Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü, polkovnik Abdulla Qurbani, Rəna Qurbanova və Mixail Sklyamin Azərbaycanda keçirilən bu yarışın əhəmiyyətini yüksək dəyərləndiriblər. Aparıcılar "Dəniz kuboku-2019"un Xəzəryanı ölkələr arasında əməkdaşlığın inkişafında rolundan danışıblar.

Sonra "Dəniz kuboku-2019" müsabiqəsinin hakimlər briqadası və komandalar mərasimə dəvət olunub.

Müsabiqə iştirakçıları - Rusiya Federasiyası Xəzər flotiliyasının, İran İslam Respublikasının, Qazaxıstan Respublikasının və Azərbaycan Respublikasının Hərbi Dəniz qüvvələrinin komandaları dövlət bayraqları altında və hərbi orkestrin müşayiəti ilə meydana daxil olublar. Mərasimdə müsabiqəyə ev sahibliyi edən Azərbaycanın dövlət himni ifa edilib, üçrəngli bayrağı qaldırılıb.

Beynəlxalq Ordu Oyunlarının və "Dəniz kuboku-2019" müsabiqəsinin bayraqları mərasimə gətirilib. Sonra Beynəlxalq Ordu Oyunlarının və "Dəniz kuboku-2019" müsabiqəsinin bayraqları dalğalandırılıb. Daha sonra "Dəniz kuboku-2019" müsabiqəsinin baş mükafatı - kubok meydana gətirilib.

Azərbaycan Respublikası Müdafiə nazirinin müavini, general-leytenant Kərim Vəliyev mərasim iştirakçılarını və qonaqları salamlayıb, onlara Müdafiə nazirinin təbrikini çatdırıb. Kərim Vəliyev bildirib ki, Beynəlxalq Ordu Oyunları hərbi əməkdaşlığın, hərbçilər arasında dostluğun möhkəmləndirilməsi, peşəkarlığın daha da artırılması məqsədinə xidmət edir. Azərbaycan Ordusu Rusiya Federasiyası Müdafiə Nazirliyinin təşəbbüsünə qoşularaq müxtəlif yarışlarda uğurla iştirak edir. Hər il bu yarışlara maraq artır və onun coğrafiyası daha da genişlənir. Builki Beynəlxalq Ordu Oyunları 10 dövlətin ərazisində, eləcə də Azərbaycanda keçirilir. 32 müsabiqədə 5 mindən artıq hərbçi gücünü sınayır.

O deyib: "Artıq üçüncü ildir ki, Xəzər dənizindəki Azərbaycan ərazi sularında yarışırsınız. Xəzər dənizi tarixən sahillərində yaşayan bütün xalqların ümumi sərvəti olub. Dostluq, qardaşlıq dənizi olan Xəzərin təhlükəsizliyini təmin etmək hər birimizin borcudur. Əminəm ki, "Dəniz Kuboku" müsabiqəsi ölkələrimiz arasında qarşılıqlı əlaqələrin, əməkdaşlığın daha da güclənməsinə öz töhfəsini verəcək. İnanıram ki, yarışlar hamınızın yaddaşında silinməz iz buraxacaq, Azərbaycandan xoş təəssüratlarla ayrılacaq və bu diyara qayıtmaq arzusu ilə yaşayacaqsınız. Sizi bir daha səmimi qəlbdən salamlayır, komandalara yüksək nəticələr və uğurlar arzulayıram. Hansı ölkənin komandasının birinci yeri tutmasından asılı olmayaraq bizim dostluğumuz, qardaşlığımız, həmrəyliyimiz qələbə çalacaq".

Kərim Vəliyev "Dəniz kuboku" beynəlxalq müsabiqəsini açıq elan edib.

Mərasimdə incəsənət ustalarının, Həzi Aslanov adına Ordu-İdeoloji və Mədəniyyət Mərkəzinin kollektivinin, iştirakçı ölkələrin və Rusiya Federasiyasının mahnı və rəqs ansambllarının iştirakı ilə teatrlaşdırılmış kütləvi bədii proqram təqdim olunub.

Qeyd edək ki, Azərbaycan hərbçiləri avqustun 3-dən 17-dək 10 dövlətin ərazisində keçiriləcək "Beynəlxalq Ordu Oyunları-2019" yarışlarında ölkəmizi təmsil edirlər.

Azərbaycan hərbçiləri ölkəmizdə "Dəniz kuboku", Rusiyada "Tank biatlonu" və "Səhra mətbəxi", Qazaxıstanda "Artilleriya atəşinin ustaları", Belarusda "Snayper həddi" və Özbəkistanda təşkil olunan "Hərbi-tibbi estafet" müsabiqələrinə qatılıblar.

"Dəniz kuboku-2019"-da hərbi dənizçilər "Artilleriya atışlarının yerinə yetirilməsi", "Gəminin dayanıqlığı uğrunda mübarizə və xilasetmə hazırlığı" və "Dəniz hazırlığı" üzrə mərhələlərdə güclərini sınayaraq ən yaxşı heyətləri müəyyənləşdirəcəklər.

Türkiyə, Pakistan, Səudiyyə Ərəbistanı, Bəhreyn və Birləşmiş Ərəb Əmirlikləri Silahlı Qüvvələrinin nümayəndələri "Dəniz kuboku - 2019" müsabiqəsində müşahidəçi qismində iştirak edirlər.

Avqustun 6-da "Dəniz kuboku - 2019" müsabiqəsində iştirak edən Azərbaycan, Rusiya, İran və Qazaxıstanın hərbi gəmilərinin heyətləri "Gəminin dayanıqlılığı uğrunda mübarizə" üzrə yarışda "Təlim-məşq kompleksində suyun daxil olmasına qarşı mübarizə" epizodunu yerinə yetiriblər.

Ekipajlar bu epizodda gəminin təhlükəsizliyinin təmin olunması, həmçinin gəminin xilas olunması üzrə bacarıq və vərdişlərini nümayiş etdiriblər.

Beynəlxalq hakimlər kollegiyasının qərarı ilə bu mərhələdə Azərbaycan 40 balla birinci, İran 34 balla ikinci, Qazaxıstan 31 balla üçüncü, Rusiya komandası isə 30 balla dördüncü yerə layiq görülüb.

Avqustun 7-də "Dəniz kuboku - 2019" müsabiqəsinin "Gəminin dayanıqlılığı uğrunda mübarizə və xilasetmə hazırlığı" üzrə mərhələsində hərbi dənizçilər "Xilasetmə vasitələrinin istifadəsi" tapşırıqlarını yerinə yetiriblər.

Beynəlxalq hakimlər kollegiyasının qərarı ilə bu mərhələnin də qalibi Azərbaycan Hərbi Dəniz Qüvvələrinin komandası olub. Qərara əsasən Azərbaycanın hərbi dənizçiləri birinci, Rusiya ikinci, Qazaxıstan üçüncü, İran isə dördüncü yerə layiq görülüblər.

Avqustun 8-də "Dəniz kuboku - 2019" beynəlxalq müsabiqəsi çərçivəsində hərbi dənizçilər arasında voleybol yarışı keçirilib.

Tədbir açıq elan edildikdən sonra Azərbaycan Respublikasının dövlət himni səsləndirilib.

Azərbaycan hərbi dənizçiləri voleybol yarışında da qalibiyyətlərini davam etdiriblər. Belə ki, dostluq turnirinin yekununa görə, Azərbaycan birinci, Qazaxıstan ikinci, İran üçüncü, Rusiya komandası isə dördüncü yerə layiq görülüb.

Qalib komandalara kuboklar, medallar, fəxri fərmanlar və hədiyyələr təqdim edilib.

(Davamı 4-cü səhifədə)

Xəzərin Rusiya sektorunda yerləşən süni obyektlərin qeydiyyata alınması barədə Qanun imzalanıb

Prezident Vladimir Putin Xəzərin Rusiya sektorunda yerləşən süni obyektlərin qeydiyyata alınması barədə Qanun imzalayıb.

Sənəd Xəzərin Rusiya sektorunda süni adaların, qurğuların, tikililərin inşası, istismarı və istifadəsi, eləcə də onlara mülkiyyət hüququ, qazma işlərinin aparılması, sualtı kabel və boruların çəkilməsi qaydalarını tənzimləyir.

Qanuna əsasən, bu işlər "Daxili dəniz suları, ərazi dənizi və ətraf zona haqqında" Qanunla tənzimlənəcək.

Fəridə Abdullayeva

"İstəyirəm ki, dənizçilik sahəsində uğur qazananlar arasında xanımlarımızın sayı çox olsun"

www.seanews.az və Azərbaycan Dövlət Dəniz Akademiyasının birgə gerçəkləşdirdiyi "ADDA-nın məzunu" layihəsində bu dəfə "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin (ASCO) Layihələrin idarəedilməsi departamentinin əməkdaşı Nərminə Cabbarova ilə sizi yaxından tanış edirik.

2011-ci ildə Azərbaycan Dövlət Dəniz Akademiyasının "Menecment" ixtisasına qəbul olub.

2015-ci ildə diplom işindən 100 bal toplayaraq Akademiyadakı təhsilini ən yüksək nəticə ilə başa vurub.

İngilis dili üzrə biliyini daha da inkişaf etdirmək üçün Doğu Akdeniz Universitetinin yay məktəbində iştirak edib. Həmçinin, Akademiyada təhsil aldığı dövrlərdə gənclər təşkilatlarında çalışıb, müxtəlif mövzularda təlimlər keçib və konfranslara qatılıb.

Dənizçilik sahəsində karyerasına ASCO-nun İnsan resurslarının idarəedilməsi departamentində təcrübəçi olaraq başlayıb. 2016-cı ildən Dəniz Nəqliyyatı Donanmasının Dispetçer xidmətində, daha sonra Strateji inkişaf və investisiya layihələri departamentində assistent kimi çalışıb.

2017-ci ildə ASCO-nun təsis etdiyi "Təqaüd proqramı" çərçivəsində İsveçdə yerləşən və Beynəlxalq Dəniz Təşkilatının nəzdində olan Dünya Dənizçilik Universitetinin "Dəniz daşımalarının idarə olunması və logistika" ixtisasına daxil olub, 2018-ci ilin noyabrında məzun olaraq magistr elmi dərəcəsini alıb. Bununla da, o, Azərbaycanı Dünya Dənizçilik Universitetində təmsil edən ilk xanım olub.

2018-ci ilin dekabrından ASCO-nun Layihələrin idarəedilməsi departamentində tender və satış üzrə mütəxəssis olaraq çalışır.

Nərminə Cabbarova deyir:

- Ölkəmizin iqtisadiyyatında önəmi gündən-günə artan gəmiçilik və logistika sahəsinin inkişafına töhfə vermək üçün əlimdən gələni etməyə çalışacağam. Dənizçi peşəsinə həvəsi olan zərif cinsin nümayəndələrinə isə "Dənizçilik qadına uyğun deyil" fikrinə məhəl qoymadan məqsədlərinə doğru inamla getmələrini arzulayıram. İstəyirəm ki, dənizçilik sahəsində uğur qazananlar arasında xanımlarımızın sayı çox olsun.

Yeni Vahid Tarif Cədvəlinin tətbiqinə bu il sentyabrın 1-dən başlanacaq

Məlum olduğu kimi, Prezident İlham Əliyevin 2019-cu il iyunun 18-də imzaladığı Sərəncamla bu il sentyabrın 1-dən respublikamızda minimum aylıq əməkhaqqının məbləği artırılaraq 180 manatdan 250 manata çatdırılacaq.

Sərəncamın icrası olaraq Nazirlər Kabinetinin bu il avqustun 7-də verdiyi 345 nömrəli qərarına uyğun olaraq əməkhaqları Vahid Tarif Cədvəli (VTC) əsasında ödənilən işçilərin tarif (vəzifə) maaşları orta hesabla 40 faizədək artırılaraq həmin işçilər üçün yeni VTC təsdiq edilib. Əməkhaqları Vahid Tarif Cədvəli (VTC) əsasında ödənilən işçilərin sırasına dövlət büdcəsindən maliyyələşdirilən sosial, elm, təhsil, səhiyyə, mədəniyyət, gənclər və idman, kənd təsərrüfatı, ekologiya və ətraf mühitin mühafizəsi, mənzil-kommunal, nəqliyyat və rabitə, meliorasiya, su təsərrüfatı və balıqartırma sahələrində çalışanlar daxildir.

Əmək və Əhalinin Sosial Müdafiəsi nazirliyindən verilən məlumata görə, yeni VTC-də tarif (vəzifə) maaşları əməyin ödənilməsinin 1-19-cu dərəcələri üzrə 250-906 manat intervalında müəyyən edilib və həmin VTC-nin tətbiqinə bu il sentyabrın 1-dən başlanacaq.

Dövlət başçısının qeyd edilən Sərəncamının icrası olaraq, Nazirlər Kabinetinin bu il avqustun 7-də verdiyi 346 nömrəli qərarı ilə büdcədən maliyyələşdirilən müəssisə, idarə və təşkilatlarda tədris məşğələlərinin aparılmasına cəlb edilən işçilərin əməyinin saathesabı ödənilməsi məbləğləri də orta hesabla 40 faiz artırılıb. Təhsilverənlərin və təhsilalanların kateqoriyasından asılı olaraq müəyyən edilmiş saathesabı ödəniş məbləğlərinin tətbiqi bu il sentyabr 1-dən həyata keçiriləcək.

Həmçinin Sərəncamın icrası olaraq, dövlət orqanlarında çalışan, lakin dövlət qulluqçusu olmayan işçilərin (xadimə, dalandar, bağban, gözətçi və s.) aylıq vəzifə maaşları orta hesabla 40 faizdən çox artırılaraq dövlət orqanlarının kateqoriyaları üzrə 260-310 manat intervalında müəyyən edilib. Həmin aylıq vəzifə maaşlarının tətbiqinə də sentyabrın 1-dən başlanacaq.

Fəaliyyətini bərpa etmək istəyən fiziki şəxs hara müraciət etməlidir?

Fəaliyyətini bir müddət dayandıran fiziki şəxs onu yenidən bərpa etmək istəyirsə, hara müraciət etməlidir?

Vergilər Nazirliyinin Media və kommunikasiya mərkəzindən bildirilib ki, fiziki şəxs fəaliyyətini müvəqqəti dayandırdığı halda, onu aktivləşdirmək üçün ilkin olaraq müvafiq qaydada tərtib olunmuş "Vergi ödəyicisinin, onun filialının, nümayəndəliyinin və ya başqa təsərrüfat subyektinin (obyektinin) fəaliyyətinin və digər vergi tutulan əməliyyatlarının bərpası haqqında arayış"ı təqdim etməlidir.

Həmçinin gücləndirilmiş elektron imza (o cümlədən Asan İmza) və ya istifadəçi kodu, parol və şifrə olduqda, Vergilər Nazirliyinin İnternet Vergi İdarəsi portalı üzərindən qeyd olunan əməliyyatları elektron qaydada yerinə yetirmək mümkündür.

Eyni zamanda, fiziki şəxsin yenidən uçota alınması (ləğv edilmiş VÖEN-in bərpası) üçün isə "Fiziki şəxsin vergi uçotu haqqında ərizə" ilə qeydiyyatda olan vergi orqanına və ya həmin vergi orqanının əhatə dairəsində olan vergiödəyicilərinin xidmət mərkəzinə müraciət edilməlidir.

Dörd il ərzində su arteriyasının gəliri təqribən 19 milyard ABŞ dolları olub

2018-2019-cu maliyyə ili ərzində Misir Süveyş kanalının mövcud olduğu bütün tarix ərzində bu kanalın istismarından dövlət xəzinəsinə rekord məbləğdə - 104,2 milyard Misir funtu (təqribən 6 milyard ABŞ dolları) həcmində illik gəlir əldə edib.

Süveyş kanalı administrasiyasının sədri Möhəb Məmiş Yeni Süveyş kanalının istifadəyə verilməsinin dördüncü ildönümünə həsr edilmiş mətbuat konfransında bu barədə danışıb. Onun sözlərinə görə, dörd il ərzində bu su arteriyasının gəliri 317,2 milyard Misir funtu (təqribən 19 milyard ABŞ dolları) olub.

M.Məmiş xüsusi vurğulayıb ki, 2015-ci ildə Yeni Süveyş kanalının istifadəyə verildiyi vaxtdan Süveyş kanalı iqtisadi zonasında iqtisadi meqalayihələrin sayı 192-yə, onlara qoyulan sərmayənin ümumi məbləği isə 25 milyard dollara çatıb. O, daha sonra bildirib ki, qarşıdakı 15 il ərzində bu iqtisadi zonada ümumi məbləği 55 milyard dollar olan iri iqtisadi layihələr həyata keçirilməsi planlaşdırılır. Gələcəkdə həmin layihələr hesabına Misir gəncləri üçün bir milyon iş yeri yaradılması təmin ediləcək.

Asya Hacızadə

Kruiz limanı hər il 300-ə yaxın nəhəng layneri qəbul edir

"Deutsche Welle" portalı xəbər verir ki, son 5 ildə Lissabona turist axını 81 faiz artıb və 2018-ci ildə 30 milyona çatıb. Bunun bir səbəbi də 2 il əvvəl yeni kruiz limanının açılması ilə bağlıdır. Bu liman hər il 300-ə yaxın nəhəng layneri qəbul edir. 2019-cu ildə bu limandan istifadə edən kruiz sərnişinlərinin sayının azı 600 min nəfər olacağı gözlənilir.

Portalda qeyd edilir ki, kruiz laynerlərindən atmosferə atılan bərk hissəciklərin və kükürd-dioksidin (SO2) həcminin artması nəticəsində Lissabon limanı bütün Avropada çirklənmə dərəcəsinə görə altıncı yeri tutur. Kruiz gəmilərindən atılan kükürd dioksidin həcmi il ərzində Portuqaliyanın bütün avtomobillərinin ətraf mühitə buraxdığı SO2 qazının həcmindən 86 faiz çoxdur. Lissabon aeroportunda da çirklənmə dərəcəsi artıb. Bundan əlavə, gecə reyslərinin sayı hədsiz çox olduğuna görə təyyarələrin səsi yerli sakinlərə əziyyət verir.

Hakimiyyət orqanları şəhər hüdudlarında ikinci aeroport tikməyi qərara alıb. İctimai müzakirə aparılmadan qəbul edilmiş bu qərar sakinlərin narazılığına səbəb olub. Yeni aeroport təbii qoruğun yanında yerləşəcək. Məmurlar bildirirlər ki, şəhərdə tikinti onun hüdudlarından kənardakı ilə müqayisədə ucuz başa gəlir.

"Deutsche Welle" portalı sonda yazır: "Turizmin sürətli inkişafı Portuqaliyanın böhrandan çıxmasına kömək edib. İndi bu sahə hər il 15 milyard avrodan artıq gəlir gətirir. Buna görə də ölkənin hakimiyyət orqanları turizm bumunu dəstəkləmək üçün nə mümkündürsə edir. Onlar sakinlərin ekologiyanın pisləşməsi barədə şikayətlərinə məhəl qoymurlar".

Helikopterin köməyi ilə su rezervuarının üzərindəki dambanın dağılma təhlükəsi aradan qaldırılır

Böyük Britaniyada hərbi helikopterin köməyi ilə su rezervuarının üzərindəki dambanın dağılma təhlükəsi aradan qaldırılır.

BBC telekanalının saytı xəbər verir ki, leysan yağışları nəticəsində ciddi zərər görmüş hidroelektrik stansiyasının bəndinin tamamilə uçması İngiltərənin mərkəzində yerləşən Ueyli Bric yaşayış məntəqəsinin məhv olmasına gətirib çıxaracaq. Polisin məlumatına görə, artıq bu ərazidə yaşayan 6 min nəfər təxliyə edilib.

Britaniya rəsmiləri bildirirlər ki, helikopter 300 milyon qallon suyu rezervuara qaytaran dambanın üzərinə ballast kisələri boşaldır. Onun dağılma təhlükəsi artdığından, insanların təxliyəsi prosesi də gücləndirilib. Baş Nazir Boris Conson Ətraf Mühitin Mühafizəsi nazirinə mütəxəssislərin və xilasedicilərin iştirakı ilə təcili iclas keçirməyi tapşırıb.

Kral Hərbi Hava Qüvvələrinin məlumatına görə, Chinook helikopteri indiyədək dambanın üzərinə 400 ton ağırlığında qum, çınqıl və daş qarışığı olan ballast kisələri boşaldıb. Ərazidəki Derbişir əyalətinin konsteblinin köməkçisi dambanın dağılması riskinin sona çatması elan edilənə qədər sakinləri evlərinə qayıtmamağa çağırıb. Hazırda rezervuardakı su xüsusi texnika vasitəsilə boşaldılır və Qoyt çayının da daşması təhlükəsi olduğu bildirilir.

"Gəmilərin heyətlərinin humanist hərəkətlərini cinayət aktı kimi qiymətləndirmək və onları cəzalandırmaq düzgün addım deyil"

BMT Aralıq dənizində qeyri-leqal miqrantları xilas edən gəmilərə qarşı cəza tədbirlərinin görülməsi ilə bağlı İtaliya parlamentinin qəbul etdiyi qərarı sərt tənqid edib.

BBC telekanalının saytı xəbər verir ki, BMT-nin Qaçqınların İşləri üzrə Ali Komissarının sözçüsü Carli Yeksli İtaliyanın qanunverici orqanının qərarını tənqid edərək deyib: "İnsanları ölümdən qurtaran qeyri-hökumət təşkilatlarının fəalları və onların xilasedici gəmilərinin İtaliyanın ərazisularına buraxılmaması, habelə 1 milyon avro məbləğində cərimə edilməsi barədə qərar BMT-ni məyus edib. Bu gəmilərin heyətlərinin humanist hərəkətlərini cinayət aktı kimi qiymətləndirmək və onları cəzalandırmaq düzgün addım deyil".

Miqrantları xilas edən gəmilərin müsadirə olunması qərarı isə, BMT nümayəndəsinin sözlərinə görə, beynəlxalq hüquq normalarına ziddir.

BMT-nin hesabatında bildirilir ki, 2019-cu ildə Aralıq dənizi vasitəsilə Avropa ölkələrinə getmək istəyən 426 miqrant boğularaq ölüb. 2014-2018-ci illərdə isə Avropaya yollanan 30 510 qeyri-leqal miqrant həyatını itirib.

Həyət evinin mülkiyyətçisi təqaüdçü və əmək veteranıdırsa...

Həyət evinin mülkiyyətçisi təqaüdçü və əmək veteranıdırsa, torpaq vergisi necə hesablanır və bu qrup şəxslərə güzəşt ola bilərmi?

Vergilər Nazirliyinin Media və kommunikasiya mərkəzindən bildirilib ki, Bakı şəhərində yerləşən həyətyanı torpaq sahəsinin hər 100 kvadratmetrinə görə Vergi Məcəlləsinin 206.3-cü maddəsinə əsasən 10 min kvadratmetrədək olduqda 0,6 manat, 10 min kvadratmetrdən yuxarı olan hissə üçün 1,2 manat torpaq vergisi hesablanır.

Bundan əlavə, tikililərin və qurğuların altında olan torpaqlara, həmçinin obyektlərin sanitariya mühafizəsi üçün zəruri olan torpaq sahələrinə görə torpaq vergisi tutulur.

Torpaq vergisinin hesablanması zamanı güzəşt Vergi Məcəlləsinin 102.2-ci maddəsində göstərilən şəxslərin mülkiyyətində olan torpaqlara görə 10 manat məbləğində nəzərdə tutulub. Təqaüdçü və əmək veteranı olan şəxslər isə sözügedən maddədə qeyd edilmədiyi üçün onlara güzəşt şamil olunmur.

Roma Papası: "Avropa siyasətçilərinin ritorikası Hitlerin bəyanatlarından da pisdir"

Roma Papası Fransisk Avropa ölkələrini birləşməyə çağırıb və qeyd edib ki, bugünkü Avropa siyasətçilərinin ritorikası nasist lideri Hitlerin 1934-cü ildə verdiyi bəyanatlarından da pisdir.

O, Köhnə qitədə yenidən baş qaldıran qatı milliyyətçilik meyilləri ilə bağlı xəbərdarlıq edib, bunun nümunəsi kimi İtaliyanın hazırkı Daxili İşlər nazirinin çıxışlarını misal gətirib. Bu siyasətçi "italiyalılar üstündür" şüarı altında hökumətdən dəstəyini geri çəkib və nəticədə ölkədə siyasi böhran yaranıb. Matteo Salvini, həmçinin digər ölkələrinin siyasətçilərini də Avropa İttifaqına qarşı "suverenlik" fəaliyyətinə çağırıb.

SBS telekanalının saytı xəbər verir ki, La Stampa qəzetinə müsahibə verən Roma Papası bu hərəkətləri təcridolunma siyasəti kimi dəyərləndirib. O deyib: "Mən Avropanın milliyyətçi siyasətçilərinin fəaliyyətinə baxanda Adolf Hitlerin 1930-cu illərdə çıxışlarını xatırladım. Onların arasındakı bənzərlik məni çox narahat etdi. "Biz üstünük, yenə də biz...biz..." sözləri qorxulu fikirlərdir.

Avropada gələn ilin mayında keçiriləcək seçkilər ərəfəsində italiyalı nazirin "suverenlik" alyansına Fransanın ultra-sağ hərəkatının lideri Marin Le Pen və Macarıstanın Baş Naziri Viktor Orbanın da dəstək verdiyi bildirilir. Ultra-sağ təmayüllü siyasi partiyaların daha da güclənməsi Papanı narahat edib. O, dövlətlərin suverenliyinin vacib olduğunu, eyni zamanda, Avropa İttifaqını qorumağın və inkişaf etdirməyin zəruriliyini qeyd edib. Əlavə edib ki, "suverenlik" hərəkatı Avropada ciddi fəsadlara səbəb ola bilər.

Hər iki həftədən bir yerli xalqların dillərindən biri yox olur

Yerli xalqlar dünya əhalisinin cəmi 5 faizi qədərdir və onların sayı 370 milyon nəfərə çatır. Planetdə yoxsul insanların da 15 faizi bu xalqların təmsilçiləridir. Bu rəqəmlər BMT-nin Beynəlxalq Yerli Xalqlar Günü ərəfəsində dərc olunmuş hesabatında göstərilib.

Hesabatda qeyd olunub ki, yerli xalqlar 5 min müxtəlif mədəniyyətin və ümumi sayı təxminən 7 minə çatan dünya dillərinin daşıyıcılarıdır. Onlar əcdadlarının miras qoyduqları unikal mədəniyyətləri yaşadırlar. Bu, həmçinin insanın təbiətə münasibətində də özünü göstərir. Mədəni fərqlərə baxmayaraq, yerli xalqların hamısının qarşısında duran ümdə vəzifə öz tarixi adət-ənənələrini və məişətini yaşatmaqdır. Lakin BMT ekspertlərinin qənaətinə görə, onlardan bir çoxunun hüquqları kobud şəkildə pozulur. Beynəlxalq ictimaiyyət bu problemin mövcudluğunu etiraf edir və özünəməxsusluğunu qoruyub saxlamaqda yerli xalqlara kömək etməyi prioritet vəzifə kimi irəli sürür.

BMT-nin ekspertləri bildirirlər ki, torpaqlarını, təbii ehtiyatlarını itirən və digər problemlərlə üzləşən yerli xalqlar yaşayışlarını, təhsilini və məşğulluğu təmin etmək üçün böyük şəhərlərə üz tuturlar. Onlar, həmçinin iqlim dəyişmələri nəticəsində baş verən münaqişələrdən xilas olmaq məqsədilə başqa dövlətlərə də mühacirət edirlər. Latın Amerikasında yerli xalqların 40 faizi, hətta bəzi ölkələrdə 80 faizi şəhərlərdə yaşayırlar. Onların bir çoxu dövlət xidmətlərindən istifadə edə bilmir və ayrı-seçkiliyə məruz qalır.

2019-cu ildə Beynəlxalq Yerli Xalqlar Günü yerli xalqların dilinə həsr olunub. Qeyd olunur ki, hazırda yerli xalqların dilləri də təhlükə altındadır. Hər iki həftədən bir bu dillərdən biri yox olur və uzun əsrlərboyu əldə edilmiş mədəni irs də məhv olmaq təhlükəsi ilə üzləşir.

BMT-nin Beynəlxalq Yerli Xalqlar Günü avqustun 9-da təşkilatın Nyu-Yorkdakı mərkəzi ofislərində qeyd olunub.

Baş Nazir Novruz Məmmədov Birinci Xəzər İqtisadi Forumunda iştirak edib

(Əvvəli 1-ci səhifədə)

Baş Nazir forum çərçivəsində Xəzər İnnovasiya Texnologiyaları Sərgisinin keçirilməsinə də toxunaraq ümidvar olduğunu bildirib ki, belə sərgilərin keçirilməsi Xəzəryanı ölkələrin biznes dairələri arasında qarşılıqlı iqtisadi əlaqələrin genişlənməsinə və regionda informasiya kontentinin yaxşılaşmasına şərait yaradacaq, sahibkarlar arasında bilavasitə görüşlərin keçirilməsi isə regionun ümumən firavanlaşması işində mühüm rol oynayacaq. Azərbaycan tərəfi digər yüksək səviyyəli rəsmi tədbirlər fonunda işgüzar dairələrin bu cür görüşlərinin keçirilməsini hərtərəfli dəstəkləyir, Xəzəryanı dövlətlərlə qarşılıqlı hörmətə və etimada əsaslanan ikitərəfli münasibətlərin inkişafına xüsusi diqqət yetirir.

Azərbaycanın Xəzəryanı ölkələrlə ticarət əlaqələrinin ən yüksək səviyyədə olduğunu vurğulayan Baş Nazir deyib: "2019-cu ilin birinci yarısında Xəzəryanı dövlətlərlə Azərbaycanın ticarət dövriyyəsi əvvəlki ilin müvafiq göstəriciləri ilə müqayisədə 28 faizdən çox artıb. Eyni dövrdə ölkəmizin xarici ticarət dövriyyəsində Xəzəryanı dövlətlərin payı 11 faizdən çox olub. Ümidvaram ki, biznes dairələrinin bu forum çərçivəsində təşkil edilən görüşləri qarşılıqlı ticarətin həcminin daha da artmasına gətirib çıxaracaq".

Beynəlxalq və regional nəqliyyat dəhlizlərinin inkişafının təmin edilməsinin region iqtisadiyyatının effektivliyinin artırılmasında mühüm rol oynadığını bildirən Baş Nazir Novruz Məmmədov əlavə edib ki, nəqliyyat, infrastruktur və logistika sahələrində birgə layihələr dövlətlərimizin iqtisadi imkanlarını genişləndirir, onların əhəmiyyətini artırır. Tarixi İpək Yolunun bütün dövrlərdə Avropa ilə Asiyanı birləşdirən strateji ticari-iqtisadi dəhliz kimi məşhur olduğunu xatırladan Baş Nazir deyib ki, ölkələrimizin əlverişli coğrafi mövqeyi, burada həyata keçirilən genişmiqyaslı layihələr, tranzit və yükdaşıma potensialından səmərəli istifadə olunması bu sahədən əldə edilən gəlirlərin həcmini durmadan artırmaq üçün yaxşı imkanlar yaradır: "Azərbaycan "Şərq-Qərb" və "Şimal-Cənub" beynəlxalq layihələrinin həyata keçirilməsi çərçivəsində çox fəal əməkdaşlıq edir. Məsələn, 2018-ci ildə "Şərq-Qərb" marşrutu üzrə ölkəmizin ərazisindən keçməklə, ümumi çəkisi 9 milyon tondan çox olan tranzit yüklər daşınıb. Qeyri-neft məhsullarının tranzitində daha güclü artım müşahidə olunub. Bu artım 49 faizə bərabərdir. "Şimal-Cənub" marşrutu üzrə yüklərin tranzitinin həcmində 8 dəfə artım qeydə alınıb. Bu rəqəmlər bir daha göstərir ki, tranzit yolların genişlənməsi davam edir, ticarət dövriyyəsi artır, bu da son nəticədə bütövlükdə regionun firavanlaşmasına doğru aparır".

Çıxışında yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanının Azərbaycanın nəqliyyat sistemində mühüm yer tutduğunu vurğulayan Baş Nazir bildirib ki, liman istifadəyə verilməndən sonra bu logistika mərkəzi regionda avtomobil, dəmir yolu və dəniz yollarının kəsişdiyi məkana çevrilib: "Hazırda bu limanın buraxıcılıq qabiliyyəti ildə 15 milyon ton yük və 100 min konteyner daşımağa imkan verir. Bu göstəriciləri ildə 25 milyon ton yükə və 1 milyon konteynerə çatdırmaq planlaşdırılır. Onu da qeyd etmək istəyirəm ki, Azərbaycan Xəzər dənizində ən böyük – 260 gəmidən ibarət ticarət donanmasına malikdir. Liman ətrafında azad iqtisadi zonanın yaradılması ticari-iqtisadi və nəqliyyat sahələrində əməkdaşlığın inkişafına şərait yaradacaq".

Çıxışının sonunda Azərbaycan Respublikasının Baş Naziri forum iştirakçılarını mənəvi birlik, həmrəylik və qardaşlıq rəmzi olan müqəddəs Qurban bayramı münasibətilə təbrik edib, səmimi qəbula və qonaqpərvərliyə görə Türkmənistan rəhbərliyinə bir daha təşəkkürünü bildirib.

Forumda çıxış edən digər iştirakçılar da Xəzər dənizinin Xəzəryanı ölkələr arasında əməkdaşlığın daha da dərinləşməsinə şərait yaradan mühüm birləşdirici amil olduğunu xüsusi vurğulayıblar. Tədbirdə əminlik ifadə olunub ki, Xəzər İqtisadi Forumu qarşılıqlı iqtisadi fəaliyyətin aktual məsələlərinin müzakirə edilməsi üçün mühüm məkan olacaq, regionumuzun son dərəcə zəngin potensialını üzə çıxaracaq və ölkələrimizin inkişafına nəzərəçarpacaq səmərə verəcək.

İkinci Xəzər İqtisadi Forumunun Rusiyanın Həştərxan şəhərində keçirilməsi nəzərdə tutulur.

Qeyd edək ki, Birinci Xəzər İqtisadi Forumunda ticarət və iqtisadi əlaqələrin inkişafı, əsasən də böyük layihələr üçün şəraitin yaradılması, Xəzər regionunun iqtisadiyyatının qlobal kontekstdə rolu, neft və qaz, elektrik enerjisi, nəqliyyat, ticarət, kənd təsərrüfatı, turizm və Xəzəryanı dövlətlərin qarşılıqlı maraq kəsb edən digər sahələrində investisiya cəlbediciliyi müzakirə olunub. Həmçinin forum çərçivəsində beynəlxalq konfrans, Xəzər İnnovasiya Texnologiyaları Sərgisi, işgüzar dairələrin və şirkətlərin nümayəndələri arasında görüşlər təşkil edilib.

Birinci Xəzər İqtisadi Forumunda region ölkələri arasında əməkdaşlığı daha da genişləndirmək çağırışları səslənib

Türkmənistanın "Avaza" turizm zonasında keçirilən Birinci İqtisadi Forumun açılışında çıxış edən Xəzəryanı ölkələrin hökumət başçıları mühüm təkliflər irəli sürüblər.

Xəzəryanı ölkələrin hökumət başçıları Xəzərin regionda enerji, sənaye, nəqliyyat və ticarət baxımından əhəmiyyətini, ölkələr arasında bu istiqamətdə layihələrin həyata keçirilməsini, qarşılıqlı sazişlərin imzalanmasının vacibliyini qeyd ediblər.

Rusiya Federasiyasının Baş Naziri Dmitri Medvedev forumun xüsusi bir vəzifəsinin - Xəzər beşliyi çərçivəsində yüksək səviyyəli əməkdaşlıq sisteminin işgüzar və ticarət-iqtisadi qarşılıqlı fəaliyyətin effektiv və müasir mexanizmi ilə tamamlanmasının, mühüm siyasi qərarları konkret qarşılıqlı faydalı layihələrlə gücləndirməyin vacibliyini bildirib.

Rusiya hökumətinin başçısı vurğulayıb ki, ötən il Xəzərin Hüquqi Statusu haqqında Konvensiyanın imzalanması Xəzəryanı ölkələrin qarşılıqlı qərarlarının həll edilə biləcəyinin təsdiqidir.

Neft və qazın Xəzəryanı ölkələr üçün geostrateji əməkdaşlığın ən mühüm istiqamətlərindən biri olduğunu deyən D.Medvedyev müasir iqtisadiyyatda təkcə neft və qaz hasilatı ilə kifayətlənməməyi, rəqəmsal texnologiya, əmtəə və xidmətlərin sərbəst hərəkəti, xalis energetika, rasional təbiətdən istifadə olunmasının əhəmiyyətini vurğulayıb. Qeyd edib ki, Xəzəryanı dövlətlər bu tendensiyalardan kənarda qala bilməzlər.

O, həmçinin optimal nəqliyyat infrastrukturunun, yüksək texnoloji və təhlükəsiz istehsalın, unikal turizm məhsullarının yaradılması məsələlərinə də toxunub.

İran İslam Respublikasının Birinci vitse–prezidenti Eshaq Cahangiri bu tarixi məqamın Xəzəryanı ölkələrin qarşısında yeni imkanların açdığını və bu məqamlardan səmərəli istifadə etməyin vacibliyini bildirib. "Müxtəlif sahələrdə əməkdaşlıq qurmalıyıq. Mövcud imkanlar ətraf mühitin qorunması və bu istiqamətdə layihələrin həyata keçirilməsi üçün gözəl fürsətdir", - deyə Cahangiri qeyd edib. Ölkələr arasında əlaqələrin daha da inkişaf etdirildiyini vurğulayan Birinci vitse-prezident ticarət, turizm, iqtisadiyyat və nəqliyyat sahələrinin möhkəmləndirilməsinin vacibliyini diqqətə çatdırıb. O, İran tərəfinin bu cür əməkdaşlığı daim dəstəklədiyini, özəl sektorda da əməkdaşlıq qurmağın, layihələr həyata keçirməyin çox əhəmiyyətli olduğunu deyib.

İranın Birinci vitse-prezidenti hava əlaqələrinin genişləndirilməsi, nəqliyyat dəhlizinin inkişaf etdirilməsi və birgə qərarların qəbul olunmasını təklif edərək, İranın regionda sülh və stabilliyi dəstəklədiyini, ölkəsinin terrora qarşı olduğunu vurğulayıb.

Qazaxıstan Respublikasının Baş Naziri Askar Mamin bildirib ki, forum Xəzər regionunun əhəmiyyətli, eyni zamanda, realizə olunmayan potensialı, qarşılıqlı faydalı əməkdaşlığın genişləndirilməsində vacib istiqamətdir. O, bu məqsədlə ticarət, investisiya, nəqliyyat, enerji və ətraf mühit sahələrində birgə tədbirlərin görülməsi təklifini irəli sürüb.

Maminin sözlərinə görə, Xəzəryanı ölkələrdə logistika infrastrukturu nəzərə alınmaqla, Rusiyanın mərkəzi bölgələrinə, habelə Şimali Avropaya çıxışı olan Türkmənistan üzərindən Şimal-Cənub dəhlizi boyunca Hindistan və İrandan yük daşımalarını artırmaq mümkündür.

Baş Nazir Xəzərdə turizmin inkişafına da diqqət çəkərək bildirib ki, təxmini hesablamalara görə, Xəzər dənizi kurortları potensial olaraq ən azı bir neçə milyon turist qəbul edə bilər. Askar Mamin Xəzərdə birgə turizmi təşviq edəcək Xəzər ölkələrinin sektoral birliyinin yaradılmasını təklif edib. Qeyd edib ki, onlardan biri də Xəzəryanı ölkələrin limanlarından çıxış yollarının istifadəyə verilməsi ola bilər.

Forum işini Xəzər regionunda ticari-iqtisadi əməkdaşlıq; regionda nəqliyyat əməkdaşlığının perspektivləri; Xəzər dənizinin enerji potensialı; Xəzər üçün yaşıl iqtisadiyyat; Xəzərdə dəniz elmi araşdırmaları sahəsində əməkdaşlıq mövzularında sessiyalarla davam etdirib.

İlahə Əhmədova

"Dəniz kuboku-2019" beynəlxalq yarışları bu dəfə də dostluğumuzun, qardaşlığımızın, həmrəyliyimizin qələbəsi ilə başa çatacaq

(Əvvəli 2-ci səhifədə)

Avqustun 11-də "Dəniz Kuboku - 2019" müsabiqəsində iştirak edən ölkələrin hərbi dənizçiləri Xəzər dənizinin döyüş hazırlığı poliqonunda "Artilleriya atışlarının yerinə yetirilməsi üzrə yarış" mərhələsində "Üzən minaya artilleriya atışı" tapşırığını yerinə yetiriblər.

Bu mərhələdə gəmilər hərəkətdə olarkən artilleriya atəşi ilə mina hədəfinin məhv edilməsi tapşırığı uğurla həyata keçirilib. Atışlar 200 metr məsafədən icra olunub.

Beynəlxalq hakimlər briqadası gəmilərin vaxtında gəlməsi və hədəflərin məhv edilməsi üzrə qiymətləndirmə aparıblar. Qərara əsasən, Azərbaycan və Rusiya komandaları 40 balla birinci, Qazaxıstan 36 balla ikinci, İran komandası isə 18 balla üçüncü yerə layiq görülüb.

Avqustun 12-də "Dəniz kuboku - 2019" beynəlxalq müsabiqəsi çərçivəsində hərbi gəmilərin heyətləri arasında mini futbol yarışı keçirilib.

İlk görüşdə İran komandası ilə qarşılaşan Rusiya hərbi dənizçiləri qalib gəliblər. Azərbaycan və Qazaxıstan komandalarının oyunu isə dənizçilərimizin qələbəsi ilə başa çatıb. Finalda Azərbaycan komandası Rusiya dənizçilərinə, üçüncü yer uğrunda görüşdə isə İran hərbçiləri Qazaxıstan komandasına qalib gəlib. Beləliklə, futbol üzrə dostluq turnirinin yekununda Azərbaycan birinci, Rusiya ikinci, İran komandası isə üçüncü yerə layiq görülüb.

Avqustun 13-də "Dəniz kuboku - 2019" müsabiqəsində iştirak edən Azərbaycan, Rusiya, İran və Qazaxıstan hərbi gəmilərinin heyətləri Xəzər dənizinin döyüş hazırlığı poliqonunda "Artilleriya atışlarının yerinə yetirilməsi üzrə yarış" mərhələsində "Kiçik ölçülü dəniz hədəfi üzrə artilleriya atışı" çalışmasını yerinə yetiriblər.

Çalışmanın icrası zamanı dəniz hədəfi qismində xüsusi quraşdırılmış gəmi lövhəsi istifadə edilib.

Atışlar təxminən 3000 metr məsafədən artilleriya qurğularından yerinə yetirilib.

Beynəlxalq hakimlər briqadasının qərarına əsasən, Rusiya komandası 40 balla birinci, Azərbaycan 36 balla ikinci, Qazaxıstan 33 balla üçüncü, İran komandası isə 18 balla dördüncü yerə layiq görülüb.

ASCO-da "Təhlükəsizlik Günü" keçirilib

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-də (ASCO) "Təhlükəsizlik Günü" keçirilib.

Tədbirdə 2019-cu ilin ikinci rübü ərzində ASCO-da qeydə alınmış hadisələr, daxili audit və monitorinqlər barədə danışılıb. Bununla yanaşı, donanmalar və idarələrdə ötən dövr üzrə KSƏTƏMM statistikası, idarələr üzrə təkrarlanan nöqsanlarla bağlı məruzələr dinlənilib, fikir mübadiləsi aparılıb.

Tədbirdə ötən rüb ərzində dünya gəmiçiliyində baş verən qəzalara da nəzər salınıb, onların səbəblərindən bəhs olunub.

Toplantıda Keyfiyyət, sağlamlıq, əməyin təhlükəsizliyi və ətraf mühitin mühafizəsi departamentinin (KSƏTƏMM) rəisi Ələkbər Əzizli geniş məruzə ilə çıxış edib. O, cari ilin ikinci rübündə görülən işlər və qarşıdakı hədəflər barədə ətraflı məlumat verib.

Departament rəhbəri ASCO-da təhlükəsizliklə bağlı keçirilən təlimlər və onların əhəmiyyəti haqqında da danışıb. Bildirib ki, maarifləndirmə hesabına hadisələrin sayında azalma qeydə alınıb. Natiq müsbət nəticənin əldə olunmasında hadisələrin araşdırılması və təhlilinin də mühüm rol oynadığını xüsusi diqqətə çatdırıb.

"Təhlükəsizlik Günü"ndə ASCO-nun müxtəlif strukturlarında çalışan və təhlükəsizlik qaydalarına tam əməl edən əməkdaşlarına xüsusi hədiyyələr verilib.

Su qıtlığının nəticələri həm də münaqişə və miqrasiyalar şəklində təzahür edir

Dünya əhalisinin təqribən dörddəbir hissəsi su qıtlığının yüksək həddə çatdığı 17 ölkədə yaşayır.

Assoşieyted Press Agentliyinin verdiyi xəbərə görə, bu barədə məlumatı Dünya Resursları İnstitutu (WRI) yayıb.

Su qıtlığından ən çox əziyyət çəkən ölkələr bunlardır: Qətər, İsrail, Livan, İran, İordaniya, Liviya, Küveyt, Səudiyyə Ərəbistanı, Eritreya, BƏƏ, San-Marino, Bəhreyn, Hindistan, Pakistan, Türkmənistan, Oman və Botsvana. Bu ölkələr Yaxın Şərqdə və Şimali Afrikada yerləşir.

Bu siyahıda 13-cü yeri tutan Hindistanın əhalisi qalan 16 ölkənin hamısının əhalisindən 3 dəfə çoxdur.

Dünya Resursları İnstitutunun məlumatında deyilir: "Su qıtlığından daha çox əziyyət çəkən 17 ölkədə kənd təsərrüfatı və sənaye sahələri, habelə bələdiyyələr istifadədə olan səth və yeraltı suların ildə orta hesabla 80 faizini istehlak edir".

WRI-nın baş direktoru Endrü Stir deyib: "Su qıtlığı ən böyük böhrandır. Onun barəsində heç kəs danışmaq istəmir. Su qıtlığının nəticələri ərzaq çatışmazlığı, münaqişə və miqrasiyalar, habelə maliyyə sabitliyinin pozulması şəklində təzahür edir".

Hətta su qıtlığının aşağı olduğu ölkələrdə də qaynar nöqtələr var. ABŞ-ın bu siyahıda 71-ci yeri tutmasına baxmayaraq, Nyu-Meksiko ştatı BƏƏ ilə eyni səviyyədə su qıtlığı ilə üzləşir.

"Xəzər dənizinin Azərbaycan sektorunda dəniz təhlükəsizliyinin təmin olunması" mövzusunda taktiki təlimlər uğurla başa çatıb

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin 2013-cü il 11 sentyabr tarixli Sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasının dəniz təhlükəsizliyi strategiyası"na əsasən Dövlət Sərhəd Xidməti (DSX) dəniz sərhədlərinin etibarlı mühafizəsi, Xəzər dənizinin Azərbaycan Respublikası sektorunda təhdidlərə qarşı səmərəli mübarizə fəaliyyətinin təmin olunması və dənizdəki şəraitdən müfəssəl şəkildə xəbərdar olma, müasir texniki imkanlardan istifadə etməklə döyüş hazırlığının daim yüksək səviyyədə saxlanılması istiqamətində tədbirləri davam etdirir.

DSX-nin mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, bu tədbirlər çərçivəsində iyulun 31-dən avqustun 2-dək "Xəzər dənizinin Azərbaycan sektorunda dəniz təhlükəsizliyinin təmin olunması" mövzusunda taktiki təlimlər keçirilib.

Taktiki təlimlərə cəlb olunmuş sərhəd gözətçi gəmiləri Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığı əsasında DSX Sahil Mühafizəsinin Gəmi inşası və təmiri mərkəzində inşa edilib. Gəmilər itisürətli və yüksək üzmə qabiliyyətinə malik olmaqla yanaşı, mükəmməl naviqasiya və radiotexniki avadanlıqla, o cümlədən müasir silahlarla təchiz edilib.

Təlimlərin əsas məqsədi Xəzər dənizində Azərbaycan Respublikasının maraqlarının qorunması, neft-qaz yataqları, sualtı boru kəmərlərinin mühafizəsinin təşkili və Dövlət Sərhəd Xidmətinin silahlı birləşmələrinin döyüş hazırlığının yüksəldilməsi, dənizdə və sahildə təxribat qruplarının, sualtı hədəflərin aşkarlanması və zərərsizləşdirilməsi, gəmilərlə, helikopterlərlə dənizdə sərhəd axtarışının və xilasetmə əməliyyatlarının keçirilməsi üzrə xidməti təcrübənin artırılması, məlumat mübadiləsinin təkmilləşdirilməsi olub.

Üç mərhələdə yeddi taktiki epizod üzrə keçirilən təlimdə neft-qazçıxarma rayonlarının, platformaların, boru kəmərlərinin mühafizəsi və müdafiəsi ilə bağlı DSX-nin Sahil Mühafizəsinin və Çevik Hərəkət Qüvvələrinin gündəlik xidməti şəraitdən fövqəladə şəraitə keçirilməsi üzrə bütün təlim tapşırıqları uğurla yerinə yetirilib.

DSX Sahil Mühafizəsinin sərhəd gözətçi gəmilərinin, Çevik Hərəkət Qüvvələrinin pilotsuz uçuş aparatının və helikopterlərinin raket komplekslərindən, həmçinin zenit-artilleriya qurğularından suüstü, sahil və hava hədəflərinə qarşı döyüş atışları müvəffəqiyyətlə həyata keçirilib, neft-qaz infrastrukturu istiqamətində təxribat qrupunu havadan dəstəkləyən pilotsuz uçuş aparatının, sualtı təxribat qruplarının və sahildə düşərgə qurmuş təxribat qruplarının aşkarlanması və məhv edilməsi üzrə tapşırıqlar yüksək dəqiqliklə icra edilib, küləkli hava və dalğalı dəniz şəraitinə baxmayaraq, şəxsi heyət möhkəm intizam, yüksək döyüş hazırlığı və peşəkarlıq nümayiş etdirib.

Təlimlərin yekun mərhələsində iştirak edən Dövlət Sərhəd Xidmətinin rəisi, general-polkovnik Elçin Quliyev təlimlərin uğurlu yekunu və yüksək nəticələrin əldə olunması münasibətilə şəxsi heyəti təbrik edib. Xidmət rəisi Xəzər dənizində dövlət sərhədinin etibarlı mühafizəsinin, döyüş hazırlığının daha da yüksəldilməsinin, neft-qaz hasilatı və daşınması infrastrukturunun təhlükəsizliyinin təmin edilməsinin DSX-nin əsas vəzifələrindən biri olduğunu vurğulayıb, dənizdə sərhəd mühafizə imkanlarının təkmilləşdirilməsi və şəxsi heyətin peşəkarlığının artırılması üzrə tapşırıqlar verib.

"BP Azerbaijan" şirkətinin 10 yerli işçisi BP-nin Böyük Britaniya, İraq və Rusiya ofislərində yüksək vəzifəli rəhbər işlərə təyin olunub

Cari ilin birinci yarısının sonuna BP şirkətinin işçisi olan Azərbaycan vətəndaşlarının sayı 2 min 510 nəfər təşkil edib.

"BP Azerbaijan" şirkətindən bildirilib ki, buraya müddətli müqavilə əsasında işləyən işçilər də daxildir.

"Ötən ilin ortalarından BP-nin ixtisaslı işçilərinin 90 faizini milli kadrlar təşkil edib. İxtisası olmayan işçilər isə 100 faiz yerli vətəndaşlardan ibarətdir. Bu ilin ilk yarısında "BP Azerbaijan" şirkətinin 10 yerli işçisi BP-nin Böyük Britaniya, İraq və Rusiya ofislərində yüksək vəzifəli rəhbər işlərə təyin olunub. BP öz təlim və inkişaf proqramlarını daha da optimallaşdırmaq, yüksək

səviyyəli kadrlar üzrə yerli bazarı daha da yaxşılaşdırmaq məqsədilə dövlət və özəl sektorun təşəbbüslərində yaxından iştirak etmək səylərini davam etdirəcək", - deyə məlumatda qeyd olunur.

Batan üç qayıqda ümumilikdə 86 nəfər olub

Filippinin İloilo şəhəri yaxınlığında üç qayıq batıb.

RİA Novosti agentliyi xəbər verir ki, qayıqların batması nəticəsində 26 nəfər ölüb, 55 nəfər isə xilas edilib.

Hadisə nəticəsində 5 nəfər itkin düşüb. Üç qayıqda ümumilikdə 86 nəfər olub.

Süveyş kanalından hər iki istiqamətdə rekord sayda gəmi keçib

Avqustun 2-də Misirin Süveyş kanalından hər iki istiqamətdə rekord sayda gəmi keçib və yük daşınıb.

Bu barədə Süveyş kanalı administrasiyasının sədri Mohab Mamiş mətbuata açıqlamasında deyib. Onun sözlərinə görə, avqustun 2-də Süveyş kanalının tarixində yeni rekord qeydə alınıb - 81 gəmi keçib və 6,1 milyon ton yük daşınıb.

M.Mamiş Süveyş kanalı vasitəsilə keçən tranzit gəmilərin sayının artmasının və daşınan yüklərin həcminin çoxalmasının əhəmiyyətini vurğulayıb, həmçinin bundan

əldə olunan gəlirlərin artmasının ölkə iqtisadiyyatının inkişafına təsir etdiyini, habelə kanalın beynəlxalq dəniz ticarətinə verdiyi töhfəni diqqətə çatdırıb.

Asya Hacızadə

16 milyon ton xam neft Ceyhan limanında 149 tankerə yüklənib

İlin birinci yarısında Bakı–Tbilisi–Ceyhan əsas ixrac neft boru kəməri (BTC) vasitəsilə təqribən 16 milyon ton (120 milyon barreldən çox) xam neft ixrac edilib və həmin neft Ceyhan limanında 149 tankerə yüklənib.

"BP Azerbaijan" şirkətindən verilən məlumata görə, yanvar-iyun aylarında BTC üzrə əməliyyat xərclərinə təxminən 55 milyon dollar, əsaslı xərclərə isə təqribən 12 milyon dollar sərf olunub.

1768 kilometr uzunluğa malik BTC boru kəməri 2006-cı ilin iyunundan istismardadır. Həmin vaxtdan bu ilin ikinci rübünün sonunadək BTC ilə ümumilikdə təqribən 432 milyon tondan çox (təxminən 3,2 milyard barreldən artıq) xam neft nəql olunub və Ceyhan limanında 4 min 234 tankerə yüklənərək dünya bazarına göndərilib.

Hazırda BTC boru kəməri Azərbaycandan əsasən "Azəri-Çıraq-Günəşli" (AÇG) nefti və "Şahdəniz" kondensatı daşıyır. Bundan əlavə, boru kəməri vasitəsilə digər xam neft və kondensat həcmləri də, o cümlədən Türkmənistan, Rusiya və Qazaxıstan nefti nəql olunur.

"BTC Co."nun səhmdarları belədir: BP (30,1 faiz), "AzBTC" (25 faiz), "Chevron" (8,9 faiz), "Equinor" (8,71 faiz), TPAO (6,53 faiz), "Eni" (5 faiz), "Total" (5 faiz), "Itochu" (3,4 faiz), "Inpex" (2,5 faiz), "ExxonMobil" (2,5 faiz) və "ONGC (BTC) Limited" (2,36 faiz).

"CMS" gəmilərin idarə edilməsi sahəsində peşəkar xidmət təqdim edir

Müsahibimiz Vüqar Novruzov 2015-ci ildən "Caspian Marine Services" şirkətində Daxili auditor və Compliance Officer vəzifəsində çalışır.

-"Caspian Marine Services" haqqında məlumat verərdiniz.

- "Caspian Marine Services" ("CMS") Azərbaycanda kifayət qədər tanınmış şirkətdir. Şirkət Xəzər dənizində neft-qaz hasilatı ilə bağlı əməliyyatların təmin edilməsi və neft-qaz platformalarına işçilərin daşınması üçün dəniz nəqliyyatı xidmətləri göstərir. Əsas fəaliyyəti, müasir texnologiyalardan və qabaqcıl idarəetmə sistemlərindən istifadə etməklə, Xəzərin Azərbaycan və digər sektorlarında çalışan şirkətlərə dəniz nəqliyyatı xidmətlərinin göstərilməsindən ibarətdir. Azərbaycandakı fəaliyyətinə 2006-cı ilin əvvəllərində başlayan şirkətin əsas ofisi Bakıda yerləşir. "CMS" gəmilərin idarə edilməsi sahəsində peşəkar xidmət təqdim edir. Bizim müştərilər arasında "BP", "Total", "Sapem" kimi nüfuzlu şirkətlər yer alır. Müştərilərin tələblərinə davamlı cavab vermək, həmçinin idarəetmə sisteminin effektivliyini, keyfiyyətini yüksəltmək üçün şirkətimiz xidmətlərinin səviyyəsini təkmiləşdirməyə çalışır.

- İdarəetmə sistemininin effektivliyini qeyd etdiniz. Bu barədə ətraflı danışmağınızı istərdik.

- "CMS"-dəki fəaliyyətimizdə biznesin bütün sahələrində yüksək standartlar müəyyən etməyə can atırıq. Şirkət idarəetmədə hərtərəfli texniki təhlükəsizlik sistemi tətbiq edir. Bu da bildiyiniz kimi bizim sektorda çox önəmli faktordur.

Şirkətin fəaaliyyətini qısaca şərh etsək, bunlar açıq dənizdə gəmi xidmətləri, sərnişinlərin daşınması, gəmilərin idarəolunmasında xüsusi dəniz əməliyyatları, həmçinin yaxta və katerlərin idarə edilməsindən və texniki xidmətlərdən ibarətdir.

- Vüqar bəy, konkret olaraq sizin fəaliyyətiniz haqqında danışaq. Şirkətdə hansı vəzifələri icra edirsiniz? "Compliance Officer" nə deməkdir?

-Konkret qaydalar var ki, onlar həm Azərbaycan qanunvericiliyi tərəfindən müəyyənləşdirilib, həm də şirkətin daxili siyasətindən irəli gəlir. Bu qaydalara hər bir əməkdaş riayət etməlidir. "Compliance nədir" sualına gəlincə, bu, şirkətdə mövcud olan təhlükələr əleyhinə və risklərin idarə olunması sahəsində qəbul olunmuş beynəlxalq sistemdir. Başqa sözlə desək, bu, korrupsiya ilə mübarizə və korrupsiya risklərinin qarşısını almaq üçün alətlər toplusudur. Biz şirkətin işini qiymətləndirən, onun qayda və tələblərə nə qədər uyğun olduğunu yoxlayan filter rolunu oynayırıq. "Compliance" əsasən effektiv mexanizmlərin yaradılması və korrupsiya fəaliyyəti təhlükəsinin qarşısını almaq üçün bir vasitədir. Bildiyiniz kimi, bu gün dünyada böyük şirkətlər korrupsiya və fırıldaqçılığa görə böyük pullar itirirlər. Ona görə də belə şöbə və vəzifələrin önəmi daha da artır. Azərbaycanda bu peşə cavan sayılır.

- Uğurlu "Compliance" proqramının tərtibi üçün nə lazımdır?

- Uğurlu "Compliance" proqramını tərtib etmək üçün əvvəlcə onun nələrdən ibarət olduğunu başa düşmək lazımdır. Əvvəldə dediyim kimi, müəyyən tələblər mövcuddur. Əgər xarici şirkətlər ilə çalışırıqsa, deməli bu tələblər həm beynəlxalq qaydalara, həm də Azərbaycan Respublikasının qanunvericiliyinə cavab verməlidir. Bundan başqa, daxili tələb və qaydalar mövcuddur. İnsanların bu tələblərə riayət etməsi üçün nə lazımdır? İlkin vəzifə "voice from the top" ("yuxarının səsi") ifadəsi ilə izah olunur. Belə ki, direktorlar şurası şirkətin hansı istiqamətdə inkişaf etməsi ilə bağlı öz fikrini açıqlamalıdır. Şirkətdə nizam-intizama riayət olunmalıdır. Bu qayda hər bir əməkdaşa şamil olunmalıdır. Bu o deməkdir ki, işə qəbul olan şəxslər bu meyarlara cavab verməlidirlər. Qəbul olunan işçilər şirkətdə qohumlarının çalışıb-çalışmadığını səmimi şəkildə bəyan etməlidilər. Həmçinin direktorlar şurası əməkdaşlardan iş prosesinə, keyfiyyətinə mane olan istənilən qayda pozuntusu haqqında məlumat verməyi tələb etməlidir. Bunun üçün bizim şirkətdə "Compliance talk" adlanan qaynar xətt yaradılıb. Bu qaynar xətt həftənin yeddi günü, 24 saat fəaliyyət göstərir. Əməkdaşlar iradlarını istəklərinə uyğun olaraq anonim və ya açıq şəkildə e-mail və telefon zəngi ilə vasitəsilə çatdıra bilərlər. Bu əlaqə yuxarıdan aşağıya doğru qurulur. Bununla da rəhbərlik əməkdaşların fikrinə önəm verdiyini, onu dinləmək istədiyini göstərir. Bundan başqa, şirkətdə etik davranış kodu tətbiq olunmalıdır. Biz onu "ləyaqət kodeksi" adlandırırıq. Əməkdaşlar bu kodeksi oxumaqla konkret vəziyyətlərdə necə davranmalı olmaları haqqında bilgi əldə edə bilərlər. Şirkətimiz böyük olduğu üçün bu kodeksi çap edib əməkdaşlara tanış olmaq üçün göndərmək kifayət etmir. Çünki hər kəs bu sənədə o qədər də ciddi yanaşmaya bilər. Buna görə də, əməkdaşlarla bu mövzuda söhbətlər aparmaq olduqca vacibdir. Bu işlə vaxtaşırı şəkildə komplayens şöbəsi məşğul olur. Biz bu mövzularda treninqlər aparmaqla da işimizi bitmiş hesab etmirik. Hər iki ildən bir eyni treninqləri təkrarlamaqla işçilərin bu mövzuda yaddaşını təzələyirik.

- Bu treninqlər şirkətə əsasən nə qazandırır?

- Biznesdə risklər olduqca böyükdür. Hər gün şirkət bu risklərlə mübarizə aparıb, onları minimuma endirməyə çalışsa da, yeni risklər yaranır. Davamlı olar treninqlər keçən, konkret situasiyalarda necə davranmağı öyrənən əməkdaşlardan yaxşı bu risklərin öhdəsindən kim gələ bilər ki? Belə vəziyyətlərə düşmüş işçilər sənə elə suallar ünvanlaya bilər ki, indiyə qədər bəlkə də bu barədə heç düşünməmisən. Hətta belə suallara anında verməyə cavabımız olmasa da, bu barədə düşünüb, konkret vəziyyətdə hansı mexanizmlərdən istifadə edərək, necə davranmağı fikirləşə bilərik.

- Sertifikatlaşma haqqında məlumat verməyinizi istərdik.

- Hər il hər bir əməkdaşdan daxili ləyaqət kodeksinə və antikorrupsiya tələblərinə əməl etmələri haqqında sertifikatlaşma formalarını doldurub imzalamaq tələb olunur. Onlar da öz növbələrində sertifikatı imzalayaraq bizə göndərirlər. Bu sertifikatlar şöbədə saxlanılır. Biz bu prosesi podratçılarımızla da həyata keçiririk. Belə ki, çalışdığın şəxslərin kimliyi haqqında məlumatlı olmalısan. Əgər bir razılaşmaya gəliriksə, təbii olaraq, hər iki tərəf bu xidmətlərdə və onun ödənişində maraqlı olmalıdır. Qarşılıqlı əməkdaşlıq edən şirkətlərin açıq olmaları vacib məqamdır. Buna görə razılaşmaya gəlinən vaxt kimliyini açıq demək lazımdır. Biz tələblərimizə uyğun şirkətlərlə çalışmaqda maraqlıyıq. Ona görə də öz rəsmi saytımızda bu tələbləri yerləşdirmişik ki, əməkdaşlıq üçün müraciət etmək istəyən şirkətlər öncədən kimlə, hansı şərtlərlə çalışacaqlarını bilsinlər. Tələblərimizdə isə çətin heç nə yoxdur. Bütün qoyduğumuz qayda və tələblər qanunlar çərçivəsindədir. İlin sonunda əməkdaşlıq etdiyimiz şirkətlərə öz sertifikatımızı göndəririk, onlardan da eyni şeyi gözləyirik. Əməkdaşlıq etdiyimiz şirkətə il boyu korrupsiya fəaliyyəti ilə məşğul olub-olmadıqları barədə açıq sual ünvanlayırıq və onlar müvafiq sertifikatı imzalayıb, bizə təqdim edirlər.

- Sizə elə gəlmirmi ki, bu sual çox formaldır? Axı heç bir şirkət açıq şəkildə korrupsioner olduğunu deməz.

- Sizin fikrinizlə razıyam. Lakin öncə qeyd etdiyim kimi, kimlə əməkdaşlıq edəcəyini öncədən bilmək çox vacibdir. Yəni hər iki şirkət razılaşmaya gəlməmişdən əvvəl xidmət və onun qarşılığı olacaq ödənişin nə dərəcədə vicdanlı, dürüst olacağını öyrənməlidir. Əməkdaşlıq qarşılıqlı etibar əsasında qurulur. Sizin sualınıza gəlincə, əgər hansısa şirkətlə öncədən maraqlandıqda onlar dürüst, qanunlara riayət etdiklərini bəyan etmiş olsalar belə, biz müxtəlif mənbələrə istinad edərək buna əmin olmağa çalışırıq. Bu sahədə kifayət qədər informasiya bazaları mövcuddur və biz bu bazalardan daimi istifadə edirik. O baza vasitəsilə həm şirkət, həm onun sahibi, direktorları, direktorlar şurası haqqında düzgün məlumatları əldə edirik.

Tuncay Türbəndəzadə
Fins.az

ASCO-nun yaratdığı imkandan istifadə edən tələbələrin sayı ildən-ilə artır

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin (ASCO) Azərbaycan Dövlət Dəniz Akademiyasında (ADDA) tələbələrin savadlı mütəxəssis kimi yetişməsi gəmiçiliyin perspektivli, bilikli kadrlarla təminatında əhəmiyyətli rol oynayır. Məhz bu səbəbdəndir ki, ASCO-nun rəhbərliyi Dəniz Akademiyasının təhsildə fərqlənən məzunlarının işlə təmin olunmasına, onların karyera inkişafına, əlavə təhsil almasına, habelə sosial müdafiəsinin gücləndirilməsinə xüsusi diqqət yetirir.

ASCO-nun strateji inkişaf planlarına uyğun olaraq Xəzərdən kənarda istismar edilən gəmilərin sayı getdikcə artdığından, gənc dənizçilərin yetişdirilməsi zamanı onlara digər hövzələrin də təcrübəsini aşılamaq imkanı yaranıb. Bunu nəzərə alaraq, dənizçi kadrların beynəlxalq standartlara uyğun inkişafını təmin etmək məqsədilə artıq dördüncü ildir ki, ADDA-nın tələbələri Qara dənizdəki gəmilərə üç aylıq yay üzmə təcrübəsinə göndərilir.

2018/2019-cu tədris ilində də ADDA-nın 8 tələbəsi ASCO-nun Dəniz Nəqliyyatı Donanmasına məxsus Qara dənizdə üzən gəmilərində ("Qaradağ", "Maestro Niyazi", "Mahmud Rəhimov" və "Teymur Əhmədov") təcrübə keçmək şansı qazanıblar.

Tələbələrdən dördü "Gəmi energetik qurğularının istismarı mühəndisliyi", dördü "Dəniz naviqasiyası mühəndisliyi" ixtisası üzrə təhsil alır.

Layihəyə seçimlər xüsusi meyarlarla aparılıb. Əvvəlcə akademiyadan həm dekanların, həm də müəllimlərin rəyi öyrənilib. Daha sonra yüksək bal toplayan, intizamlı, ingilis və rus dillərində müəyyən səviyyəyə malik tələbələr müsahibə mərhələsinə çağırılıblar.

Xatırladaq ki, ASCO-nun yaratdığı bu imkandan istifadə edən tələbələrin sayı ildən-ilə artır. Növbəti il ən azı 10 tələbə dənizçinin bu layihəyə cəlb edilməsi nəzərdə tutulur.

Çinin patrul gəmiləri Yaponiyanın ərazi sularına girib

Çinin patrul gəmiləri Yaponiyanın Aomori prefekturasının yaxınlığında bu ölkənin ərazi sularına girib.

Kyodo agentliyi xəbər verir ki, Çinin iki keşikçi gəmisi gecə saatlarında Yaponiyanın ərazi sularına girib. Yaponiya Sahil Mühafizə Xidmətinin məlumatına görə, onlar 45 dəqiqə ərzində ərazi sularında qalıb və yapon patrul xidmətinin səsucaldan qurğular vasitəsilə təkidli tələbindən sonra geri çəkiliblər. Lakin bir saatdan sonra Çin gəmiləri yenidən eyni yerə qayıdıb və daha 50 dəqiqə Yaponiyanın ərazi sularında qalıb.

Qeyd olunur ki, 2017-ci ildə də iki ölkənin gəmiləri arasında bənzər insident olub. Həmin vaxt Yaponiya hökuməti Çinə etiraz notası göndərməyib, yalnız öz narahatlığını ifadə etməklə kifayətlənib. BMT-nin dənizçilik hüququ Konvensiyasının müddəalarına görə, bir ölkənin gəmilərinin yalnız sülhməramlı məqsədlə başqa ölkənin sularında dayanmamaq şərti ilə üzməsinə icazə verilir.

Yeni növ tranzit yükün nəqli uğurla reallaşdırılıb

"Azərbaycan Dəmir Yolları" QSC-nin törəmə şirkəti olan "ADY Express" MMC və "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC yeni növ tranzit yükün nəqlinə başlayıb.

MMC-dən bildirilib ki, "ADY Express" və Bakı Limanının birgə əməkdaşlığı nəticəsində, ilkin həcmi 40 min ton olan yeni növ tranzit yükün - nitrat ammoniumun (selitra) daşınması Gürcüstan tərəfi ilə razılaşdırılıb və bu yükün nəqlinə başlanılıb. Ekspeditor rolunda çıxış edən "ADY Express" şirkəti Gürcüstanın Rustavi şəhərindən 126 vaqondan ibarət olan selitranın ilk göndərişini Ələtdəki yeni Bakı Limanına çatdırılmasını həyata keçirib.

Limanda isə 8800 ton selitranın 2 gəmiyə aşırılması uğurla reallaşdırılıb və yük Türkmənbaşı Limanına yola salınıb. Razılaşmaya əsasən, ilkin həcmin (40 min ton) avqustda nəqli həyata keçirildikdən sonra cari ilin sonunadək eyni marşrutla əlavə 80 min ton selitra yükünün daşınması nəzərdə tutulur.

Məhkəmənin qərarına görə, 852 nəfərin həlak olduğu gəmi qəzası hansısa ehtiyatsızlıq səbəbindən baş verməyib

Paris məhkəməsi 1994-cü ildə Baltik dənizində batmış "Estonia" gəmisi üzrə açılmış məhkəmədə iddiaçıların təzminat tələbini rədd edib.

Məhkəmə qərar verib ki, 852 nəfərin həlak olduğu gəmi qəzası bilərəkdən və ya hansısa ehtiyatsızlıq səbəbindən baş verməyib.

Finlandiya yaxınlığında batan bərənin suda çevrilməsi zamanı cəmi 137 nəfər qurtula bilmişdi.

1997-ci ildə sağ qalanlar və həlak olanların qohumları gəmi sahibindən təzminat almışdılar. Həlak olanların 501-i isveç, 282-si eston olub. Hazırda iddiaçıların vəkilləri apellyasiya müraciəti barədə qərar qəbul etmədiklərini bildiriblər.

Aygün Əliyeva

Təlimlərdə 30 hərbi gəmi iştirak edib

Rusiya Xəzər donanmasının 30 gəmisi Həştərxan və Dağıstanda hərbi təlim keçirib. Rusiya gəmilərinin hərbi hazırlığının yoxlanılması təlimi barədə məlumatı bu ölkənin Cənub Hərbi Dairəsinin mətbuat xidməti yayıb.

Məlumatda bildirilir ki, Həştərxan vilayətində və Dağıstan Respublikasında keçirilən təlimlərdə 1,5 mindən çox hərbçi qulluqçu, 30 hərbi gəmi və təchizat gəmiləri, 150 ədəd hərbi və xüsusi texnika iştirak edib. Dəniz piyadalarının şəxsi heyəti həyəcan siqnalından sonra hərbi əməliyyatları yerinə yetirib, habelə hərbi texnikanı hazırlayaraq mexanikləşdirilmiş dəstə təşkil edərək Dağıstandakı poliqonda toplaşıblar.

Xəzər donanmasının hərbi təliminə Cənub Hərbi Dairəsinin komandanı, general-polkovnik Aleksandr Dvornikov rəhbərlik edib. Təlim iyulun 21-dək davam edib.

İtaliya miqrantlar üçün təhlükəsiz limanların rotasiyasını tələb edib

Parisdə Aralıq dənizində miqrasiya məsələlərinə dair təşkil edilən qeyri-rəsmi iclasda İtaliya Daxili İşlər Nazirliyinin nümayəndələri birgə sənədlə bağlı Fransanın təşəbbüsünü dayandırıb və miqrantların enişi üçün təhlükəsiz olan limanların rotasiyasını tələb edib.

İtaliyanın ANSA agentliyi xəbər verir ki, Nazirlik dənizdə xilas olunan miqrantların enişi üçün təhlükəsiz limanların rotasiyası mexanizmlərinə dair tələbini bir daha təkrarlayıb.

Asiman Əsədov

260-dan çox miqrant xilas edilib

Liviyanın Sahil Mühafizə Xidməti ölkənin Aralıq dənizi sahillərində 269 miqrantın xilas edildiyi barədə məlumat yayıb.

RİA Novosti agentliyi xəbər verir ki, xilas edilən miqrantlar müxtəlif Afrika ölkələrinin vətəndaşlarıdır. Onlar paytaxt Tripolidən 60 mil şimal-şərqdə xilas edilib və şəhərdəki dəniz bazasına yerləşdiriliblər.

Miqrantlar qeyri-leqal yolla Avropaya keçmək istəyirmişlər.

BMT Avropa İttifaqına Aralıq dənizində batan miqrantları xilas etmək barədə müraciət edib

Bir neçə gün əvvəl Liviya sahillərində 150 afrikalı miqrantın gəmi qəzası nəticəsində həlak olmasından sonra BMT Avropa İttifaqına Aralıq dənizində batan qaçqınları xilas etmək barədə müraciət edib.

Təşkilatın saytı xəbər verir ki, BMT Qaçqınların İşi üzrə Ali Komissarlığın məlumatına görə, dənizdə batanlar Efiopiya və Sudan vətəndaşları olublar. Yaxınlıqdakı balıqçıların fədakarlığı nəticəsində daha 148 miqrantı xilas etmək mümkün olub.

BMT-nin məlumatında bildirilir ki, bu faciədən sarsılan Baş katib Antonio Quterreş miqrantlar və qaçqınlar üçün təhlükəsiz leqal miqrasiya kanalları yaratmağa çağırıb. Təşkilatın təmsilçisi Çarli Yaksli bildirib ki, xilas edilən 87 miqrant Tripoli yaxınlığındakı düşərgəyə qaytarılıb. Bu toplama məntəqəsi iki həftə əvvəl bombardmana məruz qalıb və 5-dən çox adam ölüb. Bu səbəbdən insanların burada saxlanılması düzgün deyil. BMT-nin təmsilçisi qeyd edib ki, bununla belə, Aralıq dənizi ilə Avropaya getmək istəyən 4 488 nəfər də Liviyaya qaytarılıb.

Çarli Yaksli Avropa ölkələrini Aralıq dənizində köməksiz vəziyyətdə olan miqrantları xilas edən qeyri-hökumət təşkilatlarının fəaliyyətini dəstəkləməyə çağırıb. Xatırladaq ki, İtaliya hökuməti bu təşkilatların gəmilərinə cərimə tətbiq edilməsi və onların ölkənin limanlarına buraxılmaması barədə qərar qəbul edib.

Hörmüz boğazından keçən Yaponiya gəmilərinin sığortası 10 dəfə artırılıb

Yaponiya Hörmüz boğazında vəziyyətin gərginləşməsi ilə əlaqədar neft məhsullarının daşınmasında müəyyən çətinliklərlə qarşılaşıb.

"Sankei" qəzetin xəbər verir ki, Hörmüz boğazından keçən tankerlərin sığorta məbləği böhrana qədər olduğundan 10 dəfə artıb.

Nəşrin məlumatına görə, son aylarda sığortaçılar tarifləri 0,025 faizdən 0,25 faizədək qaldırıblar. Beləliklə, əgər boğazdan keçən tankerin dəyəri 10 milyard yen (təqribən 92 milyon dollar) təşkil edirsə, bu zaman onu sığorta etmiş şirkət əvvəllər olduğu kimi 23 min dollar deyil, 230 min dollar ödəməlidir.

Bundan əlavə, İrandan maksimum uzaqlaşdırılmaq üçün tankerlərin marşrutu dəyişdirilib. Yaponiya şirkətləri tərəfindən sığortalanan tankerlər, həmçinin Hörmüz boğazını maksimum sürətlə keçməlidirlər ki, bu da əlavə yanacaq sərfiyatına səbəb olur. Bu kanal neft məhsullarının Yaponiyaya daşınması üçün mühüm əhəmiyyətə malikdir. Belə ki, Yaponiya xammalın 80 faizini İran körfəzi ölkələrindən alır.

Vüqar Ağayev

Miqrantları daşıyan gəminin Liviyanın Homs şəhərinin sahillərində qəzaya uğradığı bildirilib

Liviya sahillərində qəzaya uğrayan gəmidə 150 nəfərin öldüyü ehtimal olunur. Reuters agentliyinin bildirdiyinə görə, bu məlumatı BMT-nin Qaçqınların İşi üzrə Ali Komissarlığının rəsmi nümayəndəsi verib.

Məlumatda bildirilir ki, gəmidə olan daha 150 nəfəri xilas etmək mümkün olub. Bundan əvvəl də BMT-nin Qaçqınların İşi üzrə Ali Komissarlığının "Twitter" səhifəsində qanunsuz miqrantları daşıyan gəminin Liviyanın Homs şəhərinin sahillərində qəzaya uğradığı bildirilib. Əlavə edilib ki, bu qəza nəticəsində 100-dən çox insan həlak olub, 140 miqrant isə xilas edilərək sahilə çatdırılıb.

Qanunsuz miqrasiyanın qarşısını almaq məqsədilə Egey, Aralıq və Qara dənizlərinin sahillərində nəzarət tədbirləri gücləndirilib

Türkiyənin sahil mühafizə qüvvələri 2016-cı ildən bu günədək 795 min 875 miqrantı və onların ölkədən qanunsuz yollarla qaçmalarına kömək etməkdə təqsirləndirilən 18 min 775 nəfəri saxlayıb. Təşkilatçılardan 4883-ü həbs edilib.

Bu barədə Türkiyənin Daxili İşlər Nazirliyindən məlumat verilib.

Məlumatda bildirilib ki, miqrantlar maddi imkanlarından asılı olaraq, 500-7000 avro müqabilində ölkələrini tərk edirlər. Qanunsuz miqrasiya sahəsi cinayətkar qrupların əldə etdikləri gəlirin məbləğinə görə narkotik vasitələrin ticarətindən və terror təşkilatlarından sonra üçüncü sırada yer alır.

Müxtəlif səbəblərdən ölkələrini tərk edərək Türkiyəyə üz tutan və buradan Avropaya keçmək istəyənlərin sayı ötən illərlə müqayisədə azalsa da, bu proses davam edir. Bu il 16 mindən çox köçkün saxlanılaraq ölkələrinə qaytarılıb. Onlardan 144-ü dənizdə boğulma, donma və yol qəzaları nəticəsində həlak olub. Qanunsuz miqrasiyanın qarşısını almaq məqsədilə Türkiyənin sahil mühafizə qüvvələri miqrantların ən çox üz tutduqları istiqamətlərdə - Egey, Aralıq və Qara dənizlərinin sahillərində nəzarət tədbirlərini gücləndiriblər.

Günel Məlikova

ABŞ Hörmüz boğazı ilə bağlı Almaniyaya rəsmi tələb irəli sürüb

ABŞ rəsmi olaraq Almaniyadan Hörmüz boğazında ticarət fəaliyyətinin təhlükəsizliyini təmin edən missiyada iştirak etməsini istəyib.

DPA agentliyi xəbər verir ki, bu barədə Berlindəki ABŞ səfirliyi məlumat yayıb. Səfirliyin mətbuat katibi Tamara Sternberg-Greller deyib: "Biz Almaniyadan Hörmüz boğazının təhlükəsizliyini təmin etmək və İran təcavüzünə qarşı mübarizə aparmaq üçün Fransa və Böyük Britaniyaya qoşulmağı xahiş etdik".

Qeyd edək ki, Almaniya hökuməti əvvəlki açıqlamalarında müttəfiqlərindən Hörmüz boğazında ticarət gəmilərinin təhlükəsizliyini qorumaq üçün hərbi missiyada iştirak etməklə bağlı hər hansı bir tələbin olmadığını bildirmişdi. Almaniyanın Müdafiə naziri Annegret Kramp Karrenabauer isə məlum tələbin qiymətləndirilməli olduğunu bildirib.

Dünya iri beynəlxalq gəmiçilik mərkəzlərinin ilk beşliyi

Dubay artıq ikinci ildir ki, ardıcıl olaraq "Sinxua-Baltiya" beynəlxalq gəmiçilik mərkəzlərinin inkişaf indeksində dünyanın ən yaxşı gəmiçilik mərkəzlərinin beşliyinə daxil edilir.

BƏƏ-nin "WAM" dövlət informasiya agentliyi xəbər verir ki, indeks liman və gəmiçilik biznesi üzrə xidmətlər təklif edən dünyanın iri şəhərlərinin müstəqil səmərəlilik reytinqini əks etdirir.

Qeyd olunur ki, iri beynəlxalq gəmiçilik mərkəzlərinin ilk beşliyinə Sinqapur, Honkonq, London, Şanxay və Dubay daxildir.

"Sinxua-Baltiya" beynəlxalq gəmiçilik mərkəzlərinin inkişaf indeksini Çinin Sinxua dövlət informasiya agentliyi beynəlxalq yükdaşımaların təchizatçısı olan "Baltiyskaya birja" ilə birgə işləyib hazırlayıb. Hesabat obyektiv amillər, o cümlədən limanların buraxılış qabiliyyəti və imkanları, dəniz nəqliyyatının, həmçinin ümumi iş mühitinin dəstəklənməsi üzrə peşəkar xidmətlərin diapazonu və həcmi əsasında tərtib edilib.

Asya Hacızadə

Dənizi qorumaq hamımızın borcudur

Xəzər dənizinin çirkləndirilməməsi çox vacib məsələdir.

Bu sözləri Milli Məclisin deputatı Rauf Əliyev jurnalistlərə açıqlamasında bildirib.

Onun sözlərinə görə, dəniz kənarında fəaliyyət göstərən obyektlərin hamısında təmizləyici qurğuları olmalıdır: "Çünki bu gün həmin obyektlərdən dənizə çirkab sular axıdılır və nəticədə dəniz çirklənir. Həmin obyektlərə qarşı Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (ETSN) başlatdığı tədbirlər alqışlanmalıdır. Dəniz sahillərində yerləşən və dənizi çirkləndirən bir çox obyektlərin ETSN tərəfindən məhkəməyə verilməsi doğru addımdır və bunu hamı dəstəkləməlidir. Çünki obyekt işlədənlər üçün təmziləyici qurğunun quraşdırılması elə çətin məsələ deyil. Məhkəmələr də mütləq qərar verməlidirlər ki, həmin obyektlər təmizləyici qurğular quraşdırsın. Hesab edirəm ki, məhkəmələr, bələdiyyələr, yerli icra orqanları, deputatlar da bu məsələlərdə nazirliyə kömək etməlidirlər. Əslində bu məsələlərin həlli üçün bütün cəmiyyət nazirliyə kömək olmalıdır. Çünki çimərliklərdən hamı istifadə edir və dənizi qorumaq da hamımızın borcudur".

Xəzər suitisinin qorunmasının elmi əsasları hazırlanır

Dağıstan Dövlət Universitetində (DDU) Xəzər suitisinin populyasiyasının azalması səbəblərinin öyrənilməsi üzrə işlər başlanıb. Bu işləri Universitetin Ekologiya və Davamlı İnkişaf İnstitutunun mütəxəssisləri "Xəzər suitisinin sayının azalmasına təsir göstərən amillərin öyrənilməsi və onun qorunmasının elmi əsaslarının hazırlanması" layihəsi çərçivəsində aparacaqlar.



"Molodyoj Daqestana" saytı xəbər verir ki, DDU-nun rektoru Murtuzəli Rabadanov ilə Qafqazın Təbiəti Mərkəzinin nümayəndələrinin görüşü həmin layihənin reallaşdırılmasına dair müqavilə imzalanmasına həsr edilib. Mərkəzin Təbiəti mühafizə fəaliyyəti üzrə baş direktoru Natalya Vavilovanın sözlərinə görə, bu layihə 2018-ci ildə Monako şahzadəsi II Alber Fondu tərəfindən dəstəklənib.

Universitetin mətbuat xidmətindən verilən məlumata görə, layihə üzrə DDU-nun tərəfdaşları Atırau Neft və Qaz Universiteti (Qazaxıstan), Azərbaycan Milli Elmlər Akademiyasının Mikrobiologiya İnstitutu, İrandakı Xəzər suitisinin reabilitasiyası mərkəzi, Türkmənistan Elmlər Akademiyası və Novosibirskdəki Federal Fundamental və Translyasiya Təbabəti Araşdırma Mərkəzi olacaq.

DDU-nun Ekologiya və Davamlı İnkişaf İnstitutunun direktoru Əlimurad Hacıyev bildirib ki, Xəzər suitisinin qorunması üzrə işlər bütün Xəzəryanı ölkələrdə aparılır. Yeni layihə bu işləri əlaqələndirməyə və Xəzərin cənubunda, o cümlədən dənizin Türkmənistan sektorunda suitinin davranışını daha ətraflı öyrənməyə imkan verəcək. Yaxın vaxtlarda Türkmənistanın ən iri adası olan Oqurçinski adasına ekspedisiya təşkil edilməsi planlaşdırılır.

Tədqiqatlara Lids Universitetinin (Böyük Britaniya) alimləri də qoşulub. Bununla əlaqədar, həmin universitetin Biologiya, torpaq və ətraf mühit fakültəsi ilə DDU-nun Ekologiya və Davamlı İnkişaf İnstitutu arasında Əməkdaşlıq haqqında Müqavilə və Qarşılıqlı Anlaşma Memorandumu imzalanıb.

Turistlərin ən çox can atdıqları məkanlar

"The Telegraph" Türkiyədə ən maraqlı yerlərin siyahısını təqdim edib.

"www.tourprom.ru" saytı xəbər verir ki, bu siyahıda birinci yeri Fəthiyyə kurortunun 70 kilometrliyində yerləşən Patara tutub. Patara antik Likiya ərazisində yerləşən eyniadlı şəhərin xarabalıqlarıdır. Burada əsasən Roma İmperiyası dövrünə aid çoxsaylı antik abidələr zəmanəmizə qədər gəlib çıxıb. Türkiyənin ən uzun çimərliyi də burada yerləşir.

İkinci yeri Egey dənizi sahilində yerləşən Bodrum kurortu tutub. Üçüncü yerdə Ölüdəniz buxtası gəlir. Bu buxta da Fəthiyyə kurortu yaxınlığında yerləşir və Türkiyə kurortları arasında turistlərin şəkil çəkdirməyə ən çox can atdıqları məkanlardan biridir.

Dördüncü yeri Pataradan şərqdə yerləşən Kalkan kurortu tutub. Kalkan bakirə təbiətli səfalı məkandan avropalıların dəbdəbəli villalarının yan-yana düzüldüyü kurorta çevrilib. Beşinci yerdə Antalya qərarlaşıb və turistlərin əksəriyyətinə onu tanıtmağın heç bir lüzumu yoxdur.

Sonra ardıcıllıqla turistlərin yaxşı tanıdığı digər kurortlar gəlir: Side (6), Alaniya (7) və Çeşmə (8). Doqquzuncu yerdə qərarlaşan Dalyan avropalı pensiyaçılar arasında ən populyar yerdir. İlk onluğu Kəmərdə çınqıllı çimərliyi və ekoloji istirahət imkanları ilə məşhur olan Çıralı qəsəbəsi tamamlayır.

Yeni və köhnə eranın ayrılması dövründə Qara dənizdə suyun səviyyəsinin qalxması nəticəsində Akra 4 metr dənizin altında qalıb

Arxeoloqlar 2020-ci ildə Krımın yaxınlığında suyun altında qalmış Akra şəhərində qazıntıları davam etdirəcəklər. TASS informasiya agentliyi xəbər verir ki, Qara dənizdə sualtı tədqiqatlar mərkəzinin direktor müavini Viktor Vaxromeyev bu ərazidə çoxlu sayda unikal mədəniyyət abidələrinin olduğunu qeyd edib.

Krımın Atlantidasında hansı sirlər mövcuddur? Arxeoloqlar bildirirlər ki, Akra şəhərinin qalıqlarının 90 faizi suyun altında, 10 faizi isə quruda qalıb. Onlar şəhərin quru hissəsində qazıntılara başlayıblar, suyun altında isə ekspedisiya gələn il təşkil ediləcək. Qədim yaşayış məskəninin arxeoloji tədqiqatı 1982-ci ildə başlayıb. Həmin il Krımın sakinlərindən biri Akranın quru hissəsində çoxlu sayda qədim sikkə tapmışdı. O vaxt təşkil edilən ekspedisiya müəyyən etmişdi ki, şəhərin böyük bir hissəsi suyun altında qalıb. Alimlər tarixi mənbələrə istinadla müəyyən ediblər ki, Akranın əsasını Bosfor dövlətləri – Nimfeya və Pantikapeyanın sakinləri qoyublar. Bu şəhər Takil burnunun şimal-şərq hissəsini əhatə edib və IV əsrin əvvəllərinə qədər Bosfor dövlətinin tərkibində olub. Yeni və köhnə eranın ayrılması dövründə Qara dənizdə suyun səviyyəsinin qalxması nəticəsində Akra 4 metr dənizin altında qalıb. İndiyədək şəhərin ərazisinin 5 faizini aşkar etmək və orada ilkin tikililər və qüllələrin qalıqlarını tapmaq mümkün olub. İyulun 1-dən başlayan ekspedisiya isə artıq şəhərin müdafiə istehkamlarının 70 metrini üzə çıxarıb.

Arxeoloqların düşərgəsi Qara dənizi Yanış gölündən ayıran qumlu zolaqda yerləşir. Onlar bu ərazidə gil qabların qalıqlarını və qədim sikkələri aşkar ediblər. Sevastopol Dövlət Universitetinin arxeoloqları isə qədim şəhərin dənizin altında qalmış hissəsini tədqiq edəcəklər. Ekspedisiyada alimlərlə yanaşı, tələbələr də iştirak edirlər. Gələcəkdə Akranın vizual bərpası layihəsinin hazırlanması da nəzərdə tutulur.

Alimlər Heraklion limanında arxeologiya tarixində antik gəmilərin ən böyük qəbiristanlığını tapıblar

Fransız tədqiqatçısı Frank Qodyonun rəhbərlik etdiyi beynəlxalq sualtı ekspedisiya Aralıq dənizində batmış antik Heraklion şəhərinin məbədinin qalıqlarını tapıb.

ScienceAlert nəşrinin verdiyi xəbərə görə, ekspedisiyanın məlumatında deyilir: "Misir və Avropa tədqiqatçıları son ekspedisiya zamanı böyük məbədin xarabalığını, habelə sikkələr və zərgərlik məmulatları olan bir neçə gəmi aşkar ediblər. Qodyo başda olmaqla, arxeoloqlar Heraklion xarabalıqlarını 20 il əvvəl tapıblar və hesab edirlər ki, indi aşkar edilən tapıntılar bu şəhərin ən böyük ibadət yeri olan Amon Qarp məbədinin sütunlarıdır. Bundan başqa, daha kiçik olan qədim yunan məbədinin xarabalığı da aşkar olunub".



Eyni zamanda, arxeoloqlar batmış gəmilərin göyərtəsində çar II Ptolemeyin bürünc sikkələrini, habelə keramika, zərgərlik məmulatları və qabları aşkar ediblər. Qeyd olunur ki, bu tapıntılar dənizin dibində obyektləri ayırd edən mürəkkəb skan alətlərinin sayəsində mümkün olub.

Heraklion Nil çayının mənşəyində yerləşən antik şəhər olub. Eramızdan əvvəl 550-331-ci illərdə Makedoniyalı İsgəndərin fəthindən əvvəl bu şəhər ölkənin ən mühüm limanı olub. VIII əsrin sonlarında zəlzələ və sunami nəticəsində dağılan Heraklion daha iki şəhərlə birlikdə suyun altında qalıb. Şəhərin dənizin dibində qalmış xarabalığı İsgəndəriyyədən 6 kilometr aralıdadır. Alimlər Heraklion limanında arxeologiya tarixində antik gəmilərin ən böyük qəbiristanlığını – 64 gəmini tapıblar.

Sualtı arxeoloji ekspedisiya Avropa Sualtı Arxeologiya İnstitutu, Oksford Dəniz Arxeologiyası Mərkəzi tərəfindən İsveçrənin Hilti fondunun və Misirin Qədim Abidələr Xidmətinin dəstəyi ilə təşkil olunub.

Dunay çayında antibiotiklərin təhlükəsiz səviyyəsi yol verilən həddi aşıb

Dunay çayı daha çox antibiotiklərlə çirkləndirilmiş hesab edilir. Bu da çayın sahillərində dincələn turistlərin sağlamlığı üçün təhlükə mənbəyidir.

Bu qənaətə 72 ölkənin çaylarında tədqiqat aparan və 711 su nümunəsi götürən Helsinki alimləri gəliblər. Alimlərin məruzəsində deyilir ki, Dunay çayının Avstriya hissəsində müxtəlif növ antibiotiklərin, o cümlədən sətəlcəm və bronxitə qarşı istifadə edilən klaritromitsinin olması müəyyən edilib. Kimyəvi maddələrin qatılığı yol verilən həddi dörd dəfə üstələyib. Tədqiqatda bildirilir ki, bu maddələr çayların yaxınlığında çirkab sularının tam təmizlənməməsi səbəbindən sututarlara düşür. Təkcə Avropada çayların 8 faizində, o cümlədən Dunayda antibiotiklərin təhlükəsiz səviyyəsi yol verilən həddi aşıb.

Pərvanə Qarayeva

Səthi buxarlanma nəticəsində 160 milyard ton buz əriyib

Avropanı tərk edən anomal istilər Qrenlandiyaya yönəlib. Dünyanın ikinci buz qalxanı olan ada rekord həcmdə ərimə ilə üz-üzə qalıb.

"Evronews" telekanalı xəbər verir ki, BMT-nin Dünya Meteorologiya Təşkilatı adanın yeni anomal temperatur təhlükəsi ilə üzləşməsi barədə hesabat hazırlayıb. Təşkilatın məlumatına görə, təkcə iyul ayında Qrenlandiyada səthi buxarlanma nəticəsində 160 milyard ton buz əriyib, halbuki, ilin əvvəlində adada anomal hava şəraiti müşahidə olunmayıb.

Arktik buzlaqların əriməsi böyük əraziyə yayılıb və onların sahəsi antirekord dərəcəsində azalıb. Şimal Buzlu okeanının əks tərəfindən Sibirdəki meşə yanğınları da Arktikanın, habelə Alyaska və Kanadanın isinməsinə səbəb olur. Britaniya mətbuatının yazdığına görə, bu yanğınlar nəticəsində atmosferə 120 milyon ton karbon qazı buraxılıb. Bu, bir çox ölkələrin sənaye tullantılarının illik həcmindən artıqdır və əsrin əvvəlindən bəri peyklər tərəfindən qeydə alınan ən böyük emissiyadır.

Dünyanın ən dərin hovuzu inşa edilir

Polşa dünyanın ən dərin hovuzunu inşa edir.



Hovuzun dərinliyi 45 metr olacaq. 27 ədəd olimpiya baseyninin suyunu tutacaq hovuzun avqustda istifadəyə veriləcəyi nəzərdə tutulur.

Hovuz dərinə dalma (dayving) idman növü ilə məşğul olanlar üçün düşünülüb. Həmçinin dərinlikdə qoruyucu şüşələr arxasında kafe, mehmanxana və konfrans zalları da inşa olunacaq ki, bu da idmançıları seyr etməyə imkan verəcək.

Aygün Əliyeva

Göz oxşayan bayraqlar

Bayraq İnstitutunun üzvü, ekspert Conni Şarpls dünyanın ən gözəl bayraqlarının siyahısını tərtib edib.

Siyahıda ilk üçlükdə Papua-Yeni Qvineyanın, Konqo Demokratik Respublikasının və Bosniya və Herseqovinanın bayraqları yer alıb.

Ekspert Bosniya və Herseqovinanın bayrağı ilə bağlı bildirib: "Etiraf edirəm ki, bu ölkənin bayrağının hər iki tərəfindəki göy zolaq kiminsə bayrağı düzgün şəkildə kəsmədiyi təəssüratını yaradır. Lakin bayraqda iki əsas komponent var ki, bu da onu möhtəşəm edir: ulduzlar və diaqonallar. Bununla yanaşı, bayrağın ən yaxşı cəhəti göy və sarı rəng arasında olan təzaddır. Bu, Argentinanın "Boka Xuniors" futbol klubunun geyimini də bu cür nümunəvi edir".

Asiman Əsədov

YARIZARAFAT, YARIGERÇƏK

Bir kommunizmə, bir də cəhənnəmə gedənlər özlərinə yoldaş axtarırlar.

Adam var, neçə üzü var... Bilmirsən hansına tüpürəsən?!

Kişilər ya qadınları dərk edirlər, ya da tərk.

Qarşımızda həmişə çox şey olur. Ən pisi budur ki, məqsəd olmur.

Udmağa çalış. Uduzmamağa çalışmağının da sonu uduzmaqdır.

Keyfimin saz vaxtı olmadığı üçün bütün cavablarım qanımın qara vaxtına düşür.

Mənə qələbə arzulayın. Qələbədən sonra mənim üçün hətta düşmənimi də bağışlamaq çətin deyil.

İnsanın əli dolu olanda vacib şeylərdən ibrət götürmür.

Sizdən dürüst olmayan adam sizdən üstün deyil.

Ağlımızdan istifadə etmədiyimiz yerdə başqaları bizdən istifadə edirlər.

Qarın insanın başına ip salıb, hara istəsə, apara bilər.

Uzağı görmək üçün ilk şərt uzağa baxmaqdır.

Özünə yer edən də var, öz yerini edən də.

Sözdə mənimlə razı olanların hamısının işə çatanda, nədənsə həmişə işi çıxır.

Vergüllə yanaşı qoyulanda, nöqtənin hökmü bitir.

Tale var. Sadəcə, kimi taleyinə komandirlik, kimi də əsgərlik edir.

Peşəkarlar danışmağı xoşlamırlar. Peşəkar olduqlarını da həmişə işləri ilə deyirlər.

İşləyənlərin daha çox başı, baş girləyənlərin daha çox qarnı ağrıyır. Niyə?

Mədəsinin sağlam olması heç kəsə haram yemək haqqı vermir.

Bəzilərinin qabağa baxmağına nə ehtiyac? Onsuz da burunlarından uzağı görmürlər.

Bilmədiyimiz hər şey bizə mürəkkəb görünür.

Axmaq adamlar bütün sualların cavablarını bilirlər.

Nə çox, nə də çoxuna qulaq asıram.

Dünyanın vecinə deyilik. Adam da var, dünya vecinə deyil.

Uğur adətən uğursuzluqların arxasında gizlənir. Bir az diqqətli olsan, görərsən.

Mən səndən heç nə istəmirəm. Anlasan, kifayətdir.

Şeytan qədər əqidəsinə sadiq kimsə var?

Axmaq adamları başa salmağa çalışanlar yalnız vaxt itirmirlər.

Gülmək pis şey olmasa da, heç kəsi özünüzə güldürməyin.

Həyat özünü ağıllı, müdrik, dahi sayanlarla doludur. Və bu, mənim günahım deyil.

Sağlam fikir eşitmədiyiniz adamın fiziki sağlamlığından nə fayda?

Təlxəklər hər dəfə meydana yeni qiyafədə çıxırlar.

Bəziləri bizdən lazım olduğu, bəziləri istifadə edə bildikləri qədər istifadə edirlər.

Narahatlıq insanı özü tapdığı kimi, rahatlığı da insan özü tapmalıdır.

Nə qədər ki, gördüyünüz işlərin daha çox sizə ehtiyacı var, işdə sizə ehtiyac olacaq.

Qadınlar kişiləri xoşbəxt, kişilər həm də qadınları bədbəxt etməyi bacarırlar.

Vicdanının səsinə qulaq asmayanlara siz də qulaq asmayın.

Olacaq şeylər - yəni bir ölüm haqqında, bir də yaxşılıq etdiyim adamların öz mənafeləri üçün addımbaşı məni sata biləcəkləri haqqında heç vaxt düşünmürəm.

Rasif TAHİROV

Xəzər dənizi Bakıya xüsusi gözəllik qatır

"Bakıda futvolley üzrə beynəlxalq turnir yüksək səviyyədə təşkil olunub. Rəqiblərimiz çox güclüdürlər. Turnirdə dünyanın ən güclü futvolleyçiləri iştirak edirlər."

Bu sözləri moldovalı futvolleyçi Dmitru Kritko deyib.

Ölkəmizdə ilk dəfə olduğunu bildirən D.Kritko qeyd edib: "Bakı haqqında məlumatlı idim. Xəzər dənizi Bakıya xüsusi gözəllik qatır. Burada olmaqdan çox məmnunam. Ümid edirəm ki, Bakıda növbəti illərdə də təşkil olunacaq yarışlara da qatılacağam. Yarışın Xəzər dənizinin sahilində təşkil olunması daha da həyəcanvericidir. Paytaxtınız yüksək turizm potensialına malikdir. Hiss olunur ki, Bakı turistlərin ən çox sevdiyi şəhərlərdən biridir.

Bakıda təşkil olunan futvolley üzrə beynəlxalq turnirdə 15 ölkədən 30 komanda mübarizə aparıb.

27-ci ölkə çempionatının ilk oyununda "Səbail" "Zirə" ilə qarşılaşacaq

Avqustun 5-də AFFA-nın inzibati binasında futbol üzrə Azərbaycan Premyer Liqasının 2019-2020-ci il mövsümünün püşkü atılıb.

Püşkatma mərasimində sayca 27-ci ölkə çempionatında mübarizə aparacaq səkkiz klubun nümayəndələri iştirak ediblər.

Tədbirdə Peşəkar Futbol Liqasının prezidenti Ramin Musayev çıxış edərək bütün iştirakçılara uğurlar arzulayıb.

Püşkün nəticələrinə əsasən, Premyer Liqaya avqustun 16-da "Keşlə" - "Qarabağ" oyunu ilə start veriləcək. "Səbail" - "Zirə" oyunu avqustun 18-də keçiriləcək.

Səkkiz güləşçimizdən beşi fəxri kürsüyə qalxıb

Yunan-Roma güləşi üzrə yığmamız Bolqarıstanın paytaxtı Sofiyada keçirilən dünya çempionatında ikinci yeri tutub.

Sofiyaya yollanan səkkiz güləşçidən beşi fəxri kürsüyə qalxıb. Belə ki, Nihad Məmmədli (55 kq) və Laçın Vəliyev (92 kq) dünya çempionu olub. Ziya Babaşovla (48 kq) Elmir Əliyev (51 kq) gümüş, Fərid Sadıxlı (45 kq) isə bürünc medal qazanıb.

Beləliklə, ikisi qızıl, ikisi gümüş və biri bürünc olmaqla beş medala sahib olan güləşçilərimizin uğurlu çıxışı nəticəsində millimiz 123 xalla komanda hesabında dünya çempionatını ikinci sırada başa vurub.

İran 148 xalla birinci, Rusiya isə 99 xalla üçüncü pillədə qərarlaşıb.

Daha iki ədalət təmsilçimiz beynəlxalq dərəcəli hakim adına layiq görülüb

Polşanın Poznan şəhərində Beynəlxalq Cüdo Federasiyasının hakimlər üçün seminarı keçirilib.

Azərbaycan Cüdo Federasiyasına istinadən xəbər verir ki, seminarda ədalət təmsilçiləri beynəlxalq dərəcəli hakim adı almaq üçün imtahan veriblər.

Nəticədə Azərbaycanın ədalət təmsilçilərindən Rəşad Əliyev və Məhəmmədəli Quluzadə beynəlxalq dərəcəli hakim adına layiq görülüb. Onlar seminara Azərbaycan Cüdo Federasiyasının dəstəyi ilə qatılıblar. Namizədlərlə ilk öncə nəzəri və ingilis dili biliklərinin yoxlanması məqsədi ilə müsahibə keçirilib. Növbəti iki gün ərzində namizəd hakimlər tatami üzərində Avropa Kubokunun görüşlərini idarə edərək praktik imtahan veriblər. Hakimlərimiz Poznanda keçirilən gənclərin Avropa Kubokunun görüşlərini uğurla idarə ediblər.

İdman sahəsində qazanılan hər bir möhtəşəm qələbə cəmiyyətimizdə vətənpərvərlik ruhunu artırır

Tokio Yay Olimpiya Oyunlarına hazırlıq həlledici mərhələyə qədəm qoyub. Azərbaycanın Olimpiya komandası bu nüfuzlu turnirə hazırlığı yüksək səviyyədə davam etdirir. Sonuncu Olimpiya Oyunlarında – "Rio 2016"da 18 medal qazanan Azərbaycan komandası bu göstəriciyə görə 14-cü yeri tutub. Bu, bizim üçün çox böyük nailiyyətdir. İdmançılarımız ənənəyə sadiq qalaraq daha yüksək nəticələr əldə etməyi hədəfləyirlər.

Bu sözləri stend atıcılığı üzrə Olimpiya çempionu Zemfira Meftaxetdinova AZƏRTAC-a məxsusi müsahibəsində deyib.

Z.Meftaxetdinova bildirib ki, idman sahəsində qazanılan hər bir möhtəşəm qələbə cəmiyyətimizdə vətənpərvərlik ruhunu artırır. Bu qələbələr sayəsində Azərbaycan dünyada güclü idman ölkəsi kimi tanınır. Bu yaxınlarda Bakıda keçirilmiş Avropa Gənclər Olimpiya Festivalında gənc atletlərimiz əzmkarlıq nümayiş etdirərək 23 medal qazanıblar. Festivalda gənc idmançılarımızın nəticələri onların güclü potensiala malik olduqlarını nümayiş etdirir. Komandamız bu mötəbər yarışda 23 medal – 10 qızıl, 7 gümüş və 6 bürünc qazanıb. Azərbaycan millisi komanda hesabında dördüncü

pillədə qərarlaşıb.

Ölkəmizdə idman infrastrukturunun yaradılması işində böyük uğurların əldə edildiyini xüsusi vurğulayan Olimpiya çempionu deyib ki, paytaxtda, eləcə də bölgələrdə Olimpiya İdman kompleksləri, müasir standartlara cavab verən idman arenaları və müxtəlif təyinatlı idman qurğuları inşa edilib və bu iş böyük uğurla davam etdirilir. Ölkəmizin geniş idman infrastrukturu bu gün ən mötəbər yarışların respublikamızda keçirilməsi üçün böyük imkanlar yaradır. Azərbaycanda I Avropa, IV İslam Həmrəyliyi oyunları kimi mötəbər turnirlər uğurla keçirilib. Dörd ildir Bakıda Formula 1 yarışları keçirilir və bu nüfuzlu turnir paytaxtımızda hər il yüksək səviyyədə təşkil edilir.

İdmanın Azərbaycan cəmiyyətinin ayrılmaz hissəsinə çevrildiyini vurğulayan Z.Meftaxetdinova bildirib ki, yeniyetmə və gənclərimiz beynəlxalq turnirlərdə, Avropa və dünya birinciliklərində çoxlu medallar qazanırlar. Əldə olunan nailiyyətlər Azərbaycan komandasının növbəti Olimpiya Oyunlarında daha böyük qələbələr qazanacaqlarını demək üçün möhkəm zəmin yaradır. Əminik ki, Tokio Yay Olimpiya Oyunlarında da idmançılarımız böyük uğura imza atacaqlar.

Bulanıq görüntü eynəyin şüşəsinin keyfiyyətsizliyindən xəbər verir

Gün eynəyi yayın əsas aksessuarlarından biridir. Günəşli günlərdə gözlərin sağlamlığı üçün eynəklər vacib hesab olunur. Lakin ucuz və keyfiyyətsiz eynəklər günəşin ultrabənövşəyi şüalarını əks etdirən xüsusi örtüyə malik deyillər. Bu isə gözlər üçün təhlükəlidir.

Respublika Neyrocərrahiyyə Xəstəxanasının oftalmoloqu Gültəkin Məmmədovanın AZƏRTAC-a verdiyi məlumata görə, gözün içərisindəki torlu qişanın zərif nöqtələri görməni təmin edir. Keyfiyyətsiz eynək taxılması həmin reseptorların zədələnməsi ilə nəticələnir və bu zaman geridönməz dəyişikliklər əmələ gəlir: "Günəş şüaları göz dibinə, buynuz qişaya və büllura mənfi təsir edir. Ona görə də oftalmoloqlar günəşli havalarda gün eynəyindən istifadə olunmasını məsləhət görürlər: "Gün eynəkləri üç qrupa bölünür: kosmetik, yüksək müdafiəli və adi gün eynəkləri. Kosmetik gün eynəklərindən adətən aksessuar kimi istifadə edilir. Yüksək müdafiəli gün eynəklərindən hündür dağlıq ərazilərdə istifadə olunması faydalıdır. Bəzi gün eynəkləri sürücü və idmançılar üçün nəzərdə tutulub. Xomilyon gün eynəkləri isə həssas gözlər üçün nəzərdə tutulub və işıqlandırmadan asılı olaraq rəngini dəyişir və gözün buynuz qişasını optik müdafiə edir".

Həkimin dediyinə görə, yüksək dərəcədə tündləşdirilmiş linzalar həm də keyfiyyətli və qoruyucu keyfiyyətə malik deyil. Tünd linzalı ucuz və keyfiyyətsiz eynəklər nəinki xeyirsiz sayılır, hətta gözlər üçün ziyanlıdır. Bunun səbəbi tünd şüşə arxasında göz bəbəyinin genişlənməsidir. Nəticədə onun arasından daha çox işıq keçmiş olur.

Mütəxəssislər eynək alarkən ilk növbədə onun rəng və çəkisinə fikir verməyi məsləhət görürlər. Eynəklər nə tünd, nə də açıq rəngdə, yüngül, rahat və göz çuxuruna uyğun olmalıdır. O həmçinin qoruyucu xüsusiyyətinə malik, gün şüalarını qıran, gözü qamaşdırmayan, gözləri rahatladan və onlara istirahət verən olmalıdır. Eynəyin şüşəsi cızılanda öz keyfiyyətini itirir, çünki cızılmış yerlərdən ultrabənövşəyi şüalar gözə təsir edir.

Keyfiyyəti yoxlamağın başqa bir yolu eynəyi taxandan sonra şaquli bir xətlə baxmaqdır. Eynəyi yüngülcə yuxarı və aşağı, sağa və sola hərəkət etdirəndə həmin xətdə oynama və qaralmalar olursa, bu, eynəyin keyfiyyətində müəyyən problemlər olduğunu göstərir. Eynəyi gözə taxarkən görüntü aydın olmalıdır. Bulanıq görüntü şüşənin keyfiyyətsizliyindən xəbər verir.

Günəş şüalarının həddindən artıq qəbulu xəstəliyə səbəb ola bilər

Günəş şüaları bir sıra xəstəliklərin müalicəsində əhəmiyyətli rol oynayan antibakterial təsirə malikdir.

Günəşin fotosintez və vitamin yaranmasını təmin etmək, istilik və işıq yaymaq, mikrobları öldürmək və insan əhval-ruhiyyəsinə müsbət təsir göstərmək kimi faydalı xüsusiyyətləri var. Bəzi dəri xəstəliklərinin müalicəsi üçün də Günəş şüaları məsləhət görülür. Günəş işığı həm də xoşbəxtlik hormonu ifrazını artırır.

Bütün bunlara baxmayaraq, Günəş şüalarının həddindən artıq qəbulu xəstəliyə və xroniki proseslərin kəskinləşməsinə səbəb ola bilər. Günəş şüalarının ən təhlükəlisi ultrabənövşəyi şüalardır, çünki həmin şüaların təsiri bədəndə müxtəlif ləkə, səpgi, dermatoz və bir sıra digər dəri xəstəliklərinin əmələ gəlməsinə səbəb ola bilər.

Həkimlər Günəş şüaları altında qaralma zamanı yol verilən səhvlər və qaydalara riayət olunmamasının bədəndə bir sıra fəsadlara, o cümlədən bədxassəli şişlərin yaranmasına da səbəb ola biləcəyini bildirirlər. Ona görə də günəş vannası müəyyən normalar daxilində qəbul edilməldir.

Günəş şüalarının zərərli təsirindən qorunmaq üçün geniş kənarları olan şlyapa qoymaq, eynək taxmaq, açıq rəngli yüngül geyimlərdən istifadə etmək lazımdır. Buludlu havalarda Günəş radiasiyası yarıbayarı azalır, buna baxmayaraq həmin hava şəraitində də qorunmaq və kölgədə qalmağa çalışmaq lazımdır. Ona görə də günorta saatlarında açıq havada olmaq məsləhət deyil. Bol maye qəbul etmək də vacib şərtlərdən biri sayılır.

Baş ağrısının səbəbləri

Adətən yuxudan oyanandan sonra insan özünü gümrah və dincəlmiş hiss edir. Lakin bəzən bunun əksinə, baş ağrısı ilə yuxudan oyananlar da olur.

Baş ağrısı 40-a qədər xəstəliyin əsas simptomu ola bilər. Aparılan müşahidələrə görə, xəstələrin 70 faizi həkimlərə baş ağrıları ilə əlaqədar müraciət edirlər ki, onların da yaranma səbəblərinin əsasında baş və boyun əzələlərinin gərginliyi durur.

Bu barədə AZƏRTAC-a psixoterapevt Əli Nağıyev məlumat verib: "Əgər baş axşamdan ağrıyırsa və səhər yuxudan qalxanda bu ağrı keçirsə və ya boyunu, damarları ovxalayanda ağrı hissi azalırsa demək bu, gərginlik mənşəli patologiyadır. Bu problemlərə uzunmüddətli, xroniki hal alan, ağırlıq, başgicəllənmə və ürəkbulanma hissi ilə müşahidə edilən ağrıları da şamil etmək olar. Belə ki, əsasən gərginlikdən yaranan baş ağrıları başgicəllənməsi ilə müşahidə olunur".

Psixoterapevtin dediyinə görə, bu tipli ağrılardan azad olmaq üçün bir sıra vacib məqamlara fikir vermək lazımdır: "Bu problemlərlə üzləşdikdə əvvəlcə nevropatoloq müayinəsindən keçmək mütləqdir. Müayinə zamanı ortaya orqanik xəstəlik çıxmadıqda pasiyent psixoterapevtə yönəldilir. Çünki belə hallarda əsas məsələ gərginliyin aradan qaldırılmasıdır. Əks halda keyfiyyətindən və sayından asılı olmayaraq heç bir ağrıkəsici kömək edə bilməz. Xroniki və kəskin travmalar, infeksion xəstəliklər nəticəsində də başda ağrılar yarana bilər. Həcmli törəmələr, yəni şiş xəstəlikləri zamanı da başda ağrı əmələ gəlir".

Onun sözlərinə görə damar mənşəli baş ağrıları əhali arasında daha geniş yayılan miqren xəstəliyinin əlaməti hesab olunur. Arterial təzyiqin qalxması və enməsi nəticəsində də başda kəskin ağrılar yaranır. Bundan başqa boyun yırtığı və osteoxondroz da baş ağrısına səbəb olur.

Səhər yeməyi vitamin və proteinlərlə zəngin olmalıdır

Səhər yeməyi günün ən vacib qidalarından hesab olunur. Onun qəbul edilməsi bədənə enerji verir, uzun müddət aclıqdan sonra düşən qan şəkərinin səviyyəsini yüksəldərək günə fəal və gümrah başlamağı təmin edir.

Həkim və diyetoloqlar bildirirlər ki, yuxudan oyanandan sonra bir saat ərzində mütləq səhər yeməyi qəbul edilməlidir, çünki gecə 10-12 saat ac qalan orqanizmin qidaya tələbatı artır.

Səhər açılan süfrə bol çeşidli qidalarla, tərkibi vitamin və proteinlərlə zəngin olmalıdır. Sabah yeməyi üçün bal qatılmış yulaf sıyığı, yaxud süd məhsullarından hazırlanmış yeməklər məsləhət görülür. Kərə yağı və zeytun da səhər yeməyi üçün faydalı ərzaqlardır. Səhər yeməyi gün ərzində insan orqanizminin enerji balansını qoruyur, əhvali-ruhiyyənin yüksəlməsinə səbəb olur. Səhər yeməyindən imtina artıq çəkinin yaranmasına şərait yaradır. Belə ki, insan yuxuya gedəndə maddələr mübadiləsi də yatır və yemək yeməyənə qədər oyanmır. Ona görə də səhər yeməyindən imtina etdikdə orqanizm naharadək daha az kalori yandırır.

Səhər yeməyi iş qabiliyyətini 30 faiz artırmaqla yanaşı, diqqəti toplamağa və eşitdiklərini yadda saxlamağa kömək edir. Ürəyin fəaliyyətinə müsbət təsir göstərir, aclıq hissinin qarşısını alır. Mütəxəssislərin fikrincə, gün boyu enerjili, sağlam və gümrah olmaq üçün səhərlər yemək yemədən evdən çıxmaz olmaz.

Ömrü uzadan 7 tövsiyə

Tanınmış amerikalı həkim-kardioloq Klayd Yansi insanın uzunömürlü olmasını təmin edə biləcək tövsiyələr tərtib edib. Həkimin fikrincə, insan orqanizmi əvvəlcədən uzun ömür sürməyə proqramlaşdırılıb. Ömrü qısaldan sağlamlığa ziyan vuran vərdişlərdir.

"MedikForum" həmin qaydaları təqdim edir. Klayd Yansinin fikrincə, bu qaydalar insanın 90-cı və 100–cü yubileyini qeyd etməyə kömək edə bilər.

Fiziki fəallıq. Həkim qaçış, üzgüçülük, intensiv yerimə, idman oyunları ilə məşğul olmağı tövsiyə edir. Kardioloq bildirir ki, fiziki fəallığın çatışmazlığı insanın ömrünü 4 il qısaldır. Ürək xəstəlikləri və ya insult azhərəkətli adamlarda daha çox inkişaf edir.

Xolesterini nəzarətdə saxlamaq. Xolesterinin miqdarı artması damarlarda ürək-damar patologiyaları riskini artıran düyünlərin əmələ gəlməsinə səbəb olur. Odur ki, xolesterinin 5 vahiddən yuxarı qalxmasına imkan vermək olmaz.

Rasiona diqqət yetirmək. Uzun ömür sürmək üçün rasiondakı şirniyyat, fastfud və qazlaşdırırlmış içkiləri məhdudlaşdırmaq lazımdır. Sellüloz, dənli bitkilər, təzə meyvə-tərəvəzi isə çox yemək lazımdır.

Təzyiqin yüksəlməsinə yol verməmək. Yüksək təzyiqi təsadüfən "sakit qatil" adlandırmırlar. Arterial hipertenziyası olan insanlarda insult riski 40 faiz, infarkt ehtimalı isə 25 faiz yüksəkdir. 45 yaşına çatandan sonra təzyiqi nəzarətdə saxlamaq xüsusilə vacibdir.

Çəkinin artmasına yol verməmək. Həkim-kardioloq xatırladıb ki, piylənmə ürək və insult xəstəliklərinin yaranmasının əsas səbəbidir. Artıq çəki ömür müddətini 5 il qısaldır.

Diabetin profilaktikasını aparmaq. Diabetdən əziyyət çəkən adamlarda təzyiq, damar, ürək, qan dövranı sistemi ilə bağlı problemlər ehtimalı artır. Piylənməyə yol vermək olmaz, çünki bu xəstəliyin həlledici inkişaf amillərindən biri məhz piylənmədir.

Siqaretçəkmədən imtina etmək. Siqaretçəkmə qlobal miqyasda ölüm amillərinin əhəmiyyət dərəcəsinə görə hipertoniyadan sonra ikincidir. Siqaretçəkmə təkcə bilavasitə tənəffüs sistemi və əğciyər xərçəngi xəstəliklərinə meyilli olan siqaret çəkənləri deyil, həm də siqaret çəkənlərin çevrəsində olan və passiv siqaretçəkmədən əziyyət çəkən insanları öldürür. Klayd Yansi bildirir ki, siqaret çəkən bu zərərli vərdişdən yaxa qurtarandan 15 il sonra onun üçün vaxtsız ölüm riski siqaret çəkməyən insanın ölüm riskinə bərabər olur.

BAŞ REDAKTOR
Rasif İman oğlu
TAHİROV

Ünvanımız:
AZ1029, Bakı şəhəri,
Heydər Əliyev prospekti, 152
TELEFONLARIMIZ:
Baş redaktor
(050) 670-33-76;
12-36 (daxili)

Qəzetin təsisçisi:
"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi"
Qapalı Səhmdar Cəmiyyəti

Qəzet "Dəniz" qəzetinin kompyuter mərkəzində yığılmış, səhifələnmiş və "Azərbaycan" nəşriyyatında çap olunmuşdur

Şəhadətnamə: 275
Tiraj: 2000
Sifariş: 2715